

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

28 fevral 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**BDU rektoru BMT-nin Beynəlxalq Kosmik Hava Təşəbbüsü üzrə proqramının rəhbər heyətinin illik yığıncağında çıxış edib**

→Səh.2

**BDU ilə Qazaxıstanın Süleyman Dəmirəl Universiteti arasında anlaşma memorandumu imzalanıb**

→Səh.2

**BDU və Türkiyənin Kırşehir Ahi Evran Universiteti arasında anlaşma memorandumu imzalanıb**

→Səh.5

**BDU alimləri “Təhsilə ekoloji baxış” mövzusunda müzakirələrdə iştirak ediblər**

→Səh.6

**BDU-da akademik Şahin Mustafayevin “Təbriz livasının müfəssəl dəftəri” kitabının təqdimatı**

→Səh.8

**BDU Özbəkistanın Daşkənd Beynəlxalq Maliyyə İdarəetməsi və Texnologiyaları Universiteti ilə anlaşma memorandumu imzalayıb**

→Səh.8



**BDU-nun nümayəndə heyəti BMT-nin COPUOS Elm və Texnika Altkomitəsinin sessiyasında iştirak edib**

→Səh.2



**BDU-da Azərbaycan Gəncləri Gününə həsr olunmuş forum keçirilib**

→Səh.3



**BDU Elmi Şurasının növbəti iclası**

→Səh.4



**BDU-HUJI ikili diplom proqramı üzrə Rəhbər Komitənin növbəti görüşü keçirilib**

→Səh.4



**Yüksək Texnologiyalar Parkı ilə universitetlər arasında əməkdaşlıq sazişi**

→Səh.5




## Xocalı soyqırımından 33 il ötür

***Azərbaycan xalqına, insanlığa və bəşəriyyətə qarşı ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımından 33 il ötür.***

Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik “böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədiblər. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı bu təcavüzkar siyasətin ən qanlı səhifəsidir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının dəstəyi ilə aylarla mühasirədə saxlanılan Xocalı şəhərinə hücuma keçərək onu yerlə-yeksan ediblər. Bu soyqırımı zamanı etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfərə ağır bədən xəsarətləri yetirilib. Eyni zamanda, 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Xain hücum nəticəsində 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb, onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Xocalı qətliamı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti tərəfindən bütün zəruri addımlar atılır.

Bu istiqamətdə məqsədyönlü fəaliyyətə Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanılıb. Faciəyə ilk dəfə hüquqi-siyasi qiymət də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis “Xocalı soyqırımı günü haqqında” qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb.

Prezident İlham Əliyev beynəlxalq səviyyədə keçirilən “Xocalıya ədalət!” kampaniyasının əhəmiyyətini nəzərə alaraq, “Xocalıya ədalət” kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında” 13 fevral 2014-cü il tarixli sərəncam imzalayıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsində şanlı Qələbəmiz və 2023-cü ildə ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunması ilə bu günə qədər Azərbaycan xalqına qarşı törədilmiş bütün vəhşiliklərin, soyqırımlarının qisası alındı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Xalq, dövlət olaraq qürurluyuq! Tarixi ədalətin bərpa olunduğu illəri yaşayırıq. Öz doğma yurdundan, dədə-baba torpaqlarından didərgin düşmüş xocalılılar evlərinə qayıdır, Xocalını yenidən gülüstana çevirirlər. Xocalı qatilləri Azərbaycanın ədalət məhkəməsi qarşısında cavab verirlər.

Yaşadığımız faciələri unutmuruq, unuda bilmərik! Çünki azad edilən ərazilərimizdə az qala hər gün aşkarlanan kütləvi məzarlıqlar bizi yaşadığımız faciələri unutmamağa, tariximizdən dərs almağa və gələcək nəsillərə çatdırmağa səsləyir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**BDU “QS Stars” audit qiymətləndirilməsində 5 ulduza layiq görülüb**

→Səh.6

# BDU-nun nümayəndə heyəti BMT-nin COPUOS Elm və Texnika Altkomitəsinin sessiyasında iştirak edib

*Fevralın 6-da BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Birləşmiş Millətlər Təşkilatının (BMT) "Kosmik Fəzanın Sülh Məqsədləri üçün İstifadəsi üzrə Komitəsi"nin (KFSMİK) Elm və Texnika Altkomitəsinin (The Scientific and Technical Subcommittee of the United Nations Committee on the Peaceful Uses of Outer Space – COPUOS) 62-ci sessiyasında iştirak edib.*



Vyana şəhərində keçirilən sessiya çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri, rektor Elçin Babayev bir neçə ikitərəfli və çoxtərəfli görüşlərdə iştirak edərək, BDU-nun elmi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığını genişləndirmək istiqamətində müzakirələr aparıb. Görüşlər zamanı Universitetin müxtəlif elm sahələrində həyata keçirdiyi layihələr, potensial əməkdaşlıq imkanları və birgə tədqiqat proqramları ilə bağlı fikir mübadiləsi aparılıb.

BMT-nin adıçəkilən Elm və Texnika Altkomitəsinin sessiyası qlobal kosmik siyasətin formalaşdırılması, yeni elmi və texnoloji nailiyyətlərin paylaşılması və ölkələr arasında əməkdaşlığın inkişafı baxımından mühüm platforma hesab edilir.

# BDU-nun rektoru BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisinin direktoru Aarti Holla Maini ilə görüşüb

*Fevralın 7-də BDU-nun rektoru Elçin Babayev Vyanada Birləşmiş Millətlər Təşkilatının (BMT) Xarici Kosmos Məsələləri üzrə Ofisinin (United Nations Office for Outer Space Affairs - UNOOSA) direktoru xanım Aarti Holla-Maini ilə görüşüb.*



Görüş zamanı BDU ilə UNOOSA arasında əməkdaşlıq perspektivləri, eləcə də elmi tədqiqatlar, kadr hazırlığı və beynəlxalq şəbəkə çərçivəsində cihaz və avadanlıqların quraşdırılması istiqamətində birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

Rektor Elçin Babayev BDU-nun astrofizika və kosmos elmləri sahəsində həyata keçirdiyi tədqiqatlar barədə məlumat verib, Universitetin beynəlxalq proqramlarda iştirakının genişləndirilməsinə xüsusi önəm verildiyini bildirib. O, UNOOSA-nın BDU ilə əməkdaşlığının ölkədə kosmos elmləri sahəsində kadr hazırlığına və müvafiq sahə üzrə elmin inkişafına mühüm töhfə verəcəyini vurğulayıb.

UNOOSA-nın direktoru xanım Aarti Holla-Maini isə BDU-nun kosmos elmləri sahəsində uğurlu fəaliyyətinə UNOOSA-nın dəstək göstərməyə hazır olduğunu bildirib. O, xüsusilə gənc tədqiqatçıların və tələbələrin kosmos tədqiqatlarına cəlb olunmasının vacibliyini qeyd edib.

# BDU-nun rektoru Elçin Babayev Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova ilə görüşüb

*Fevralın 7-də BDU-nun rektoru Elçin Babayev Avstriyanın paytaxtı Vyana şəhərində Azərbaycan Respublikasının Avstriyadakı səfirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova ilə görüşüb.*



Görüş zamanı tərəflər Azərbaycan və Avstriya arasında akademik və mədəni əlaqələrin inkişafı, elm və təhsil sahəsində əməkdaşlıq perspektivləri, eləcə də mədəni irsin təbliği istiqamətində birgə təşəbbüslər barədə müzakirə apardılar.

Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verdiyini vurğulayaraq, Universitetin dünyanın aparıcı elm və təhsil müəssisələri ilə əməkdaşlığının daha da gücləndirilməsinin vacibliyini qeyd edib. O, BDU-nun tələbə və müəllimlərinin beynəlxalq mübadilə proqramlarında iştirakının artırılmasının, habelə Universitetin nüfuzlu akademik şəbəkələrə daha sıx inteqrasiyasının əhəmiyyətini vurğulayıb.

Leyla Qasımova Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyəti, eləcə də mədəniyyətimizin Avstriyada tanıdılması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib. O, BDU ilə Avstriya ali təhsil və tədqiqat institutları arasında akademik və mədəni əməkdaşlıq təşəbbüslərinə dəstək verməyə hazır olduqlarını qeyd edib.

Sonda tərəflər gələcək əməkdaşlığın konkret istiqamətlərini müəyyənləşdirərək, bu sahədə yeni layihələrin həyata keçirilməsi üçün səylərin davam etdiriləcəyini bildiriblər.

# BDU ilə Qazaxıstanın Süleyman Dəmirəl Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Fevralın 6-da BDU ilə Qazaxıstan Respublikasının Süleyman Dəmirəl Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Müqavilənı BDU-nun rektoru Elçin Babayev və Qazaxıstanın Süleyman Dəmirəl Universitetinin rektoru Alimjan İgenbayev imzalayıb.

Anlaşma memorandumu akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafını, elmi-tədqiqat işlərində əməkdaşlıq kimi məqamları özündə əks etdirir. Memorandum çərçivəsində birgə konfrans, seminar, simpoziumların keçirilməsi, elmi jurnallarda məqalələrin çap edilməsi, ortaq tədqiqat layihələri, mədəni proqramların təşkili, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin mübadiləsi kimi məsələlər nəzərdə tutulub.

Qeyd edək ki, Qazaxıstanın Süleyman Dəmirəl Universitetinin əsası 1996-cı ildə qoyulub. 4 fakütənin fəaliyyət göstərdiyi universitetdə 9000-ə yaxın tələbə təhsil alır.

# BDU rektoru BMT-nin Beynəlxalq Kosmik Hava Təşəbbüsü üzrə proqramının rəhbər heyətinin illik yığıncağında çıxış edib

*Avstriyanın paytaxtı Vyanada BMT-nin Kosmosdan Dinc Məqsədlərlə İstifadə üzrə Komitəsinin (COPUOS) 62-ci sessiyası çərçivəsində Beynəlxalq Kosmik Hava Təşəbbüsü (ISWI) üzrə proqramın rəhbər heyətinin illik yığıncağı keçirilib.*

Tədbirin əsas məqsədi müxtəlif ölkələrdə kosmosdan istifadə sahəsində elmi-tədqiqat cihazları və alətlərinin yerləşdirilməsi, eləcə də kadr hazırlığı üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Yığıncaqda Beynəlxalq Kosmik Hava Təşəbbüsü proqramının ölkə üzrə milli koordinatorları hesabatlarını təqdim edib, həmçinin müvafiq sahələrdə yeni əməkdaşlıq imkanları müzakirə olunub.

Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan üzrə milli koordinator Elçin Babayev "Azərbaycanda kosmik hava fəaliyyətləri" mövzusunda çıxış edərək, ölkəmizin bu sahədəki inkişafı və gələcək hədəfləri barədə ətraflı məlumat verib. Çıxışda Azərbaycanın kosmik tədqiqatlar sahəsindəki strateji addımları, elmi potensialı və beynəlxalq aləmdəki nüfuzu vurğulanıb. Rektor Elçin Babayev çıxışında BDU-nun gələcəkdə kosmik hava fəaliyyətləri ilə bağlı daha çox beynəlxalq əməkdaşlıq qurmağı və bu sahədə dünya səviyyəli layihələr həyata keçirməyi hədəflədiyini qeyd edib. Bu məqsədlə Universitetin müxtəlif beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndirilməsi, müasir elmi-texniki cihaz və avadanlıqların qurulması və işə salınaraq beynəlxalq elmi məlumat bazalarına inteqrasiya edilməsi istiqamətində işlərin davam etdiriləcəyini diqqətə çatdırıb.

Yığıncaq çərçivəsində həmçinin, iştirakçı ölkələr arasında kosmos və kosmik hava tədqiqatları sahəsində birgə layihələrin həyata keçirilməsi, elmi məlumatların mübadiləsi və yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi barədə müzakirələr aparılıb. Bu, beynəlxalq səviyyədə elmi tərəfdaşlıqların genişlənməsinə və kosmos tədqiqatlarının inkişafına mühüm töhfələr verir.

# BDU-da Azərbaycan Gəncləri Gününə həsr olunmuş forum keçirilib

***Fevralın 3-də BDU-nun Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və "BDU könüllüləri"nin təşkilatçılığı ilə 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş forum keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycan Gəncləri Günü gənc nəslə daim böyük diqqət və qayğı ilə yanaşmış, dövlətin gənclər siyasətinin təməlini qoymuş və bu siyasəti Azərbaycanın inkişafının mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirmiş Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 28 il əvvəl Ulu Öndərin imzaladığı Fərmanla fevralın 2-si MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilən Gənclər Günü kimi təqvimdə yer alır. Bütün dünyaya nümunə olan bu addımdan xeyli sonra BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə Beynəlxalq Gənclər Günü (12 avqust) elan edilib. Məhz Ümummilli Liderin qəbul etdiyi fərman və sərəncamlar, qanunlar və dövlət proqramları gənc nəslin cəmiyyətdə mütəşəkkil qüvvəyə çevrilməsində, ictimai fəallığının yüksəldilməsində, dövlət idarəçiliyinə cəlb edilməsində və faydalı məşğulluğunun təmin olunmasında mühüm rol oynayıb. Dövlətimizin gənclər siyasəti Prezident İlham




Əliyevin rəhbərliyi ilə yeni mərhələyə qədəm qoyub: "Yetişməkdə olan nəslin təhsili və mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, dövlətə və xalqa sadiqlik ruhunda formalaşması, hərtərəfli sosial müdafiəsi istiqamətində atılan addımlar buna bariz nümunədir. Bu gün ölkəmizdə bakalavr və magistr hazırlığını həyata keçirən dövlət və özəl ali təhsil müəssisələrində, eləcə də elmi təşkilatlarda 200 minə yaxın, 60-dan çox orta ixtisas təhsil müəssisəsində 60 mindən artıq tələbə təhsil alır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"ı çərçivəsində yüzlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında elmi biliklərə yiyələnir. Müxtəlif elm sahələrində elmi dərəcə və ad alan gənclərimizin də sayı artmaqdadır. Azərbaycanın gənc idmançıları Olimpiya və dünya çempionatlarında uğurla çıxış edir, yüksək mükafatlara layiq görülürlər. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda gənclərin təhsil almalarına və məşğulluğuna, onların yaradıcı və innovativ potensialının üzə çıxarılması, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək bacarığına yiyələnməsi, gənclər arasında könüllülük hərəkatının inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi önəm verilir. Müstəqil Azərbaycanın gəncləri Vətənə və xalqa sevgisi, dövlətə sadiqliyi, milli adət-ənənələrə bağlılığı ilə seçilən nəsildir. Ölkəmizin suverenliyini təmin etmiş böyük qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman gənclərimizin rəşadəti sayəsində əldə edilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun istedadlı gənclərin aşkarlanması istiqamətində həyata keçirdiyi sosial layihələr, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ölkə daxilində və xaricdə təşkil edilən tədbirlər gənclərimizin ictimai fəallığının artırılmasında, məşğulluğunun təmin olunmasında mühüm rol oynayır".

Rektor diqqətə çatdırıb ki, BDU uğurla həyata keçirilən gənclər siyasətinin gerçəkləşməsinə öz töhfəsini verməkdədir: "BDU-da tələbələrin elmi potensialının üzə çıxarılmasında mühüm rol oynayan Tələbə Elmi Texniki Yaradıcılıq Mərkəzi, Tələbə Elmi Cəmiyyəti, gənclər siyasətinin və könüllülük fəaliyyətinin təşviqini həyata keçirən Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və "BDU könüllüləri" təşkilatı gənclərin inkişafında, tələbələrin ictimai fəallığının artırılmasında xüsusi ilə fərqlənir. Son illər BDU-da Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin, Xarici Dil Mərkəzinin fəaliyyətə başlaması, "Code for Future" layihəsinin həyata keçirilməsi tələbələrin bilik və bacarıqlarını daha da artırır, onların fərdi istedadlarının üzə çıxarılmasına əlverişli şərait yaradır. Məhz bunun nəticəsidir ki, BDU tələbələrinin komandaları son illər "TEKNOFEST" festivallarında mühüm nəticələr əldə edirlər. Ötən il BDU tələbələri nüfuzlu "Robotex Avrasiya" festivalında da ciddi uğur qazanıblar. 2024-cü ilin aprel ayında keçirilən bu festivalda BDU-nun yarışmada iştirak edən 7 komandasının hər biri qalib olub".

Azərbaycan Gənclər Fondunun İcraçı direktorunu əvəz edən Qədir Xəlilov, Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Rəşad Zeynalov çıxışlarında Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətin apardığı gənclər siyasətinin rolundan bəhs ediblər.

Tədbirdə BDU-nun 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub.

Daha sonra tədris göstəricilərinə görə fərqlənən və BDU-nun ictimai həyatında fəal iştirak edən 40 tələbəyə təşəkkürnamələr təqdim olunub.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edib.

# Gələcəyimizin güclü təməli - Azərbaycan gəncliyi

***2 fevral - Azərbaycan Gəncləri Günüdür.***

***Müstəqil Azərbaycanın gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib.*** Ümummilli Lider Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım atıb - bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Bu siyasətin bir mərkəzdən idarə olunması üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyi təsis olunub. 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi, 1999-cu ildə dövlət gənclər siyasəti haqqında Fərmanın imzalanması Ümummilli Liderin gənclərə böyük qayğısının təzahürü idi. 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanun da bu istiqamətdə görülən ən mühüm işlərdən biridir.

Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı gənclər siyasəti bu gün özünün ən uca məqamına çatıb. Cənab Prezident İlham Əliyev Ümummilli Liderin gənclər siyasətini qəbul etdiyi bütün qərarları ilə yüksək səviyyədə davam etdirir. Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edilib, 2007-ci il "Gənclər ili" elan olunub, 2011-ci ildə Gənclər Fondu yaradılıb. 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olunub, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiqlənib.

Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzalayıb.

Bakı Dövlət Universiteti yarandığı gündən ölkəmizin həyatında misilsiz xidmətlər göstərib. Elmi və tədris fəaliyyəti ilə yanaşı, Universitet bu gün də ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən, dövlətçiliyin daha da möhkəmləndirilməsinə, milli şüur və düşüncə tərzinin formalaşmasına önəmli töhfələr verən, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksəkixtisaslı mütəxəssis-gənclər yetişdirir.

Canı və qanı bahasına bizə parlaq qələbə sevincini yaşadan, ən yeni tarix yazaraq əzəli torpaqlarımızı işğaldan azad, suverenliyimizi bərpa edən qəhrəman övladlarımızı ehtiramla yad edirik. Azad edilən torpaqlarımızda görülən quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində gənclərimizin də iştirakı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan gənclərinin ölkə həyatında yüksək fəallığı, vətənpərvərliyi, dövlətə və Vətənə bağlılığı onların bu prosesdə də fəal iştirak edəcəklərini deməyə güclü əsas yaradır.

Azərbaycan Gəncləri Günü münasibəti ilə hər bir gənci, xüsusilə BDU ailəsinin gənc məzun və tələbələrinin hər birini ürəkdən təbrik edirik!

# BDU könüllüləri Azərbaycan Gəncləri Gününə həsr olunmuş ağacəkmə aksiyasında



***Fevralın 1-də Müşfiqabad qəsəbəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı, Azərbaycan Könüllü Təşkilatları İttifaqının tərəfdaşlığı ilə Azərbaycan Gəncləri Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. Aksiyada Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının üzvləri də iştirak ediblər.***

Qurum rəsmilərinin və əməkdaşlarının, Gənclər evləri və QHT nümayəndələrinin, könüllülərin iştirakı ilə keçirilən aksiya çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

# BDU Elmi Şurasının növbəti iclası



*Fevralın 13-də BDU-nun Elmi Şurasının növbəti iclası keçirilib.*

Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

İclasda 2024/2025-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub. BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Apellyasiya Komissiyasının sədri Elşad Qurbanov sessiyanın nəticələri ilə bağlı məruzə ediblər. Qeyd olunub ki, qış imtahan sessiyasında ümumilikdə 22 mindən artıq təhsilalan iştirak edib. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apellyasiya Komissiyası yaradılıb. Sessiyada müvəffəqiyyət göstəricisi bakalavriat səviyyəsində 75, magistraturada 92, SABAH qruplarında 95 faiz olub.

Qış imtahan sessiyasının nəticələri Elmi Şura üzvləri tərəfindən məqbul hesab edilib.

İclasda beynəlxalq əlaqələr üzrə prorektor Şahin Pənahovun BDU-nun 2024-cü ildə beynəlxalq əlaqələrinə dair məruzəsi dinlənilib.

Daha sonra BDU-nun Kimya və Tarix fakültələrinin 2024-cü ildə fəaliyyəti haqqında illik hesabatları təqdim olunub.

İclasın sonunda cari məsələlərə baxılıb.

# BDU rektoru Elçin Babayev Vyanada Azərbaycanın Avstriyada və Sloveniyadakı səfiri Rövşən Sadıqbəyli ilə görüşüb

*Fevralın 7-də BDU-nun rektoru Elçin Babayev Avstriya Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın Avstriya və Sloveniyadakı fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli ilə görüşüb.*

Görüşdə təhsil və elmi əməkdaşlığın genişləndirilməsi, BDU-nun Avstriyanın və Sloveniyanın nüfuzlu ali təhsil müəssisələri və tədqiqat mərkəzləri ilə əlaqələrinin möhkəmləndirilməsi, tələbə və müəllim mübadiləsi, eləcə də birgə elmi layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Tərəflər gələcək əməkdaşlığın konkret istiqamətləri üzrə fikir mübadiləsi apararaq, elm və təhsil sahəsində birgə təşəbbüslərin reallaşdırılması üçün qarşılıqlı əməkdaşlığın gücləndirilməsi barədə razılığa gəliblər.

# BDU-HUJI ikili diplom proqramı üzrə Rəhbər Komitənin növbəti görüşü keçirilib




***Fevralın 13-də BDU və İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında "Biotexnologiya" ixtisaslaşması üzrə həyata keçirilən beynəlxalq ikili diplom proqramının idarəedilməsini təmin edən Rəhbər Komitənin növbəti görüşü olub.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov, "2019-2023 Dövlət Proqramı" İdarəetmə Qrupunun rəhbəri Turan Topalova, BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktoru Əli Nağıyev, Yüksək Texnologiyalar Parkının Baş Direktorunun müşaviri Abutab Abbasova, BDU rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova, HUJI-nin Kənd təsərrüfatı, qida və ekologiya fakültəsinin dekanı Saul Burdman, dekan müavinləri Yel Helman, İsrael Rozenboim, "Biotexnologiya" magistratura proqramının rəhbəri Oren Osterzetçer, BDU-nun əməkdaşları və tədqiqatçıları iştirak ediblər.

Rəhbər Komitənin görüşündə BDU rektoru Elçin Babayev və HUJI-nin Kənd təsərrüfatı, qida və ekologiya fakültəsinin dekanı Saul Burdman həmsədrlər qismində çıxış edərək iclası açıq elan ediblər.

İclasda proqramın fəaliyyəti, perspektivləri, maliyyə və resurs planlaması, idarəolunması, hesabatlılığı, proqram üzrə təhsil alan tələbələrin tədqiqat layihələrinə cəlbi və keyfiyyət təminatı kimi geniş mövzulara toxunulub.

Rəhbər Komitənin HUJI-dən olan üzvləri ikili diplom proqramı tələbələrinin akademik nailiyyətlərinin müqayisəsini və analizini apararaq bildiriblər ki, gənclərin məzun olduqdan sonra biotexnologiya, bitki və qida mühəndisliyi kimi hazırda çox aktual olan sahələr üzrə doktorantura təhsilinə və tədqiqata meylli olmaları çox yaxşı göstəricidir.

Sonda BDU-nun tədqiqatçıları Aygün İsrayılova və Nurlan Əmrahov "Göbələk patogenləri ilə mübarizə strategiyası kimi bitki immun reaksiyasını gücləndirən yeni fitohormon törəmələrinin və elisitorların aşkar edilməsi və tədqiqi" və "Mikroblara qarşı yeni növ maddələrin alınması" mövzularında BDU və HUJI-nin hazırda birgə həyata keçirdiyi tədqiqat layihələrinin cari vəziyyəti barədə təqdimatla çıxış ediblər.

Xatırladaq ki, BDU və HUJI arasında "Biotexnologiya" ixtisaslaşması üzrə həyata keçirilən ikili diplom proqramı 2023-cü ilin sentyabrından başlayıb. Proqramın ilk 10 tələbəsi bu il məzun olmağa hazırlaşır. Qeyd edilən magistr proqramı "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı" çərçivəsində maliyyələşdirilir.

# BDU-da Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti ilə görüş



***Fevralın 27-də BDU-da Kənd Təsərrüfatı Nazirliyinin (KTN) nümayəndə heyəti ilə görüş olub.***

Görüşdə BDU rektorunun strateji inkişaf və əlaqələr üzrə müşaviri Xalid Bayramlı, gənclər siyasəti və sosial məsələlər üzrə müşaviri Xumar Məmmədbağırova, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyasının müdiri Qumru Hüseynova, kənd təsərrüfatı nazirinin müşavirləri Zaur Əliyev və Fərid Nəcəfov, Elm, təhsil və insan resursları şöbəsinin müdiri İlham Süleymanov iştirak ediblər.

Görüşdə BDU ilə KTN arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olunub. "Qarabağ atları" layihəsinin mövcud vəziyyəti və növbəti addımlar haqqında müzakirələr aparılıb. Brusselyoz xəstəliyinin ştamının genom məlumat bazasının yaradılması layihəsinə qısa müddətdə başlamağın mümkün olduğu vurğulanıb. KTN-nin bu il brusselyoz xəstəliyinə qarşı kütləvi peyvəndləmə aparacağı nəzərə alınaraq, layihənin aktuallığı yüksək hesab edilib.

Görüşdə həmçinin aqrar sahə üzrə magistr təhsilinin gücləndirilməsi və uyğun fakültələrdə ixtisas alt qruplarının yaradılması məsələsinə də toxunulub. Eyni zamanda, KTN və BDU-nun Karyera və məzunlarla iş Mərkəzi arasında əməkdaşlığın genişləndirilməsi və tələbələr üçün təcrübə proqramlarının yaradılması barədə fikir mübadiləsi aparılıb.

Aqrar sahə üzrə mütəxəssis hazırlığını gücləndirmək məqsədilə BDU-nun KTN əməkdaşları üçün təlimlər təşkil etməsi məsələsi də müzakirə olunub.

# BDU-nun tələbə və məzunları üçün yeni iş təcrübəsi imkanları müzakirə olunub

***Fevralın 28-də Bakı Dövlət Universitetinin Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları "ATL Academy"nin direktoru Aydan Haşımova və Satış departamentinin rəhbəri Xanım Hüseynzadə ilə görüş keçiriblər.***

Görüşdə əsas müzakirə mövzusu tələbə və məzunların iş dünyası ilə daha yaxından tanış olması, onlara real iş təcrübəsi qazandırmaq məqsədilə təcrübə proqramları və vakansiyaların əlçatanlığının artırılması olub. Görüşdə tələbə və məzunların texniki bacarıqlarının inkişaf etdirilməsi və bu istiqamətdə müxtəlif layihə və təqaüd proqramlarının həyata keçirilməsi ilə bağlı da fikir mübadiləsi aparılıb. Əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması, gənclərin iş dünyasına inteqrasiyası və onların peşəkar inkişafına dəstək verilməsi məqsədilə əməkdaşlığın vacibliyi vurğulanıb.



# Yüksək Texnologiyalar Parkı ilə universitetlər arasında əməkdaşlıq sazişi

***Fevralın 14-də Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkı (YTP) və Azərbaycanın aparıcı ali təhsil müəssisələri arasında strateji əməkdaşlığa dair anlaşma sazişi imzalanıb.***

Sazişə əsasən, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İT, mühəndislik və elm istiqamətlərində seçilmiş SABAH qrupları proqramlarının tədrisinin 2026-cı ildən etibarən YTP ərazisində yeni qurulacaq "SABAH.city" şəhərciyində keçirilməsi nəzərdə tutulur.



Tədbirdə açılış nitqi ilə çıxış edən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova "Ali təhsildə yeni məzmunlu təhsil proqramlarının əhatə dairəsinin genişləndirilməsi və maliyyələşdirilməsi barədə" ölkə başçısının Sərəncamına əsasən, SABAH proqramının əhatə dairəsinin mərhələlərlə genişləndirilməsi barədə aparılan işlər barədə ətraflı məlumat verib. YTP ilə bu istiqamətdə "SABAH.city" innovasiya şəhərciyi çərçivəsində baş tutacaq əməkdaşlığın biznes mühiti ilə elm və ali təhsil arasındakı əlaqələrə yeni yanaşma gətirəcəyini qeyd edib. Daha sonra Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov rəhbərlik etdikləri universitetlərdə SABAH proqramları çərçivəsində görülən işlər haqqında çıxış edərək ali təhsilin keyfiyyətini yüksəltmək üçün yeni yanaşmaların tətbiqinin zəruriliyini qeyd ediblər. Yüksək Texnologiyalar Parkının baş direktoru Nihat Məcidov "SABAH.city" innovasiya şəhərciyi və ali təhsil müəssisələri arasında əməkdaşlıq barədə təqdimat edərək bildirib ki, bu layihə çərçivəsində müasir standartlara cavab verən infrastruktur, yenilənmiş kurikulum, innovativ tələbə qiymətləndirmə sistemi və yüksək ixtisaslı professor-müəllim heyəti ilə təhsilin keyfiyyəti daha da yüksəldiləcək.

Qeyd edək ki, bakalavr və magistr tələbələrini əhatə edən bu təşəbbüs tədqiqat və innovasiya yönümlü akademik mühitin inkişafı, iştirakçı universitetlərdə qabaqcıl akademik ekosistemin yaradılması və tələbələri daim yenilənən əmək bazarına hazırlamaq üçün innovativ təhsil modellərinin tətbiqini hədəfləyir.

# BDU və Türkiyənin Kırşehir Ahi Evran Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Fevralın 17-də Türkiyənin Kırşehir Ahi Evran Universitetinin rektoru Mustafa Kasım Karahocagilin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

BDU rektoru Elçin Babayev qonaqlara Universitetin tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, BDU Türkiyənin ən nüfuzlu universitetləri ilə sıx əməkdaşlığa malikdir. Kırşehir Ahi Evran Universiteti ilə də elm və təhsil sahəsində müxtəlif əməkdaşlıq imkanları mövcuddur.



Kırşehir Ahi Evran Universitetinin rektoru Mustafa Kasım Karahocagil rəhbərlik etdiyi universitetin əsas fəaliyyət istiqamətləri barədə danışıb. Kırşehir Ahi Evran Universitetinin hazırladığı daxili keyfiyyət təminatı sistemini təqdim edib.

Daha sonra iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum birgə tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin mübadiləsini, ortaq akademik proqramların yaradılmasını, akademik mobilliyin artırılmasını nəzərdə tutur. Hər iki universitet müştərək konfranslar, seminarlar və digər elmi tədbirlər təşkil edərək, bilik və təcrübə mübadiləsini gücləndirəcək.

# BDU-da Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru ilə görüş

***Fevralın 18-də BDU-nun rektoru Elçin Babayev Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərovla görüşüb.***

Rektor Elçin Babayev qeyd edib ki, BDU-da akvakultura, qida və su təhlükəsizliyi, ekoloji problemlərin həlli, təbii resurslardan səmərəli istifadə sahələrində müxtəlif tədqiqatlar aparılır, müasir laboratoriyalar qurulur, gənc mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilir. BDU-nun elmi-tədqiqat mərkəzlərində ən son texnologiyalar tətbiq olunur. Bu baxımdan BDU Aqrar İnnovasiyalar Mərkəzi ilə əməkdaşlıqda maraqlıdır.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov qurumun fəaliyyəti, icra olunan layihələr, regionlar üzrə keçirilən İnnovasiya festivalları, Mərkəz tərəfindən göstərilən dəstək tədbirləri barədə məlumat verib. Ali təhsil müəssisələrinin tələbələrinin aqrar sahədə rəqəmsallaşmanın inkişafı və məhsuldarlığın artırılmasına xidmət edən startaplara böyük maraq göstərdiyini deyib.

Görüşdə BDU ilə Mərkəz arasında kənd təsərrüfatında süni intellektin tətbiqiylə bağlı layihə üzrə və ümumi əməkdaşlıq imkanları müzakirə olunub.

# BDU məzunlarının məşğulluq vəziyyəti təhlil edilib

***Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın BDU-nun məzunlarının məşğulluq vəziyyətinin təhlilinə dair hesabatı təqdim edilib.***

Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli bildirib ki, Universitet məzunlarının məşğulluq vəziyyətinin təhlil edilməsi üçün 47199 nəfər BDU tələbəsinin təhsil məlumatları, 23978 məzun məlumatları və 12500 nəfərin məşğulluğuna dair məlumatlarından istifadə edilib.



BDU rektoru Elçin Babayev təhlil nəticələrini universitet məzunlarının əmək bazarına uğurla inteqrasiya olunmasına və tələbələrin gələcək karyera perspektivlərinin yaxşılaşdırılmasına yönəlmiş mühüm addım kimi dəyərləndirib. O bildirib ki, məzunların işə götürülmə göstəricilərinin analizi BDU üçün çox önəmlidir.

Təhlil nəticəsində məşğulluq göstəricisi yüksək olan TOP15 ixtisas müəyyən edilib. Məlum olub ki, məşğulluq göstəricisi ən yuxarı olan "İqtisadiyyat və idarəetmə", "Kənd təsərrüfatı" ixtisas qruplarıdır. Məşğulluq göstəricisi ən yüksək olan məzunlar isə "Geologiya", "Hidrometeorologiya", "Menecment" ixtisaslarını bitirən tələbələrdir.

Təhlil zamanı BDU və Universitetin Qazax filialı üzrə məzunların məşğulluq göstəricilərinin müqayisəsi aparılıb, ixtisas qrupları və ixtisaslarda orta əmәkhaqqı göstəriciləri müəyyən edilib.

Qeyd olunub ki, təhlilin nəticələrinə əsasən, tələbələrin iş həyatına daha asan uyğunlaşması üçün müxtəlif proqramlar tətbiq ediləcək.

# BDU Elmi Şurasının növbəti iclası



***Fevralın 28-də BDU-nun Elmi Şurasının növbəti iclası keçirilib.***

BDU rektoru Elçin Babayev gündəlikdəki məsələləri iştirakçıların diqqətinə çatdırıb.

BDU-nun Qazax filialının direktoru Arif Rüstəmov və İqtisadiyyat və Humanitar Kollecin direktoru Səhər Orucovanın ötən il üzrə və 2024/2025-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri haqqında hesabatları dinlənilib.

Daha sonra Geologiya fakültəsinin dekanı Mamoy Mansurov və Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev 2024-cü il üzrə hesabatları təqdim ediblər.

İclasda BDU üzrə boş olan professor vəzifələrinin tutulması üçün seçki keçirilib, daha sonra cari məsələlərə baxılıb.

# BDU alimləri "Təhsilə ekoloji baxış" mövzusunda müzakirələrdə iştirak ediblər

***Fevralın 13-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri, kimya elmləri doktoru, professor Sevinc Hacıyeva və Bioekologiya kafedrasının dosenti, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru, "EkoSfera" Ekoloji-Sosial Mərkəzin rəhbəri, Ekoloji Təhsil Fondunun "Eco-Schools" və "Green Key" proqramları üzrə milli koordinatoru, Beynəlxalq Uşaq İqlim Platformasının təsisçisi Firuzə Sultan-zadə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə "Məktəbdənkənar təhsil: Çağırışlar və perspektivlər" mövzusunda Respublika konfransının "Təhsilə ekoloji baxış" adlı II panelində spiker qismində iştirak ediblər.***



Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, Elm və Təhsil Nazirliyinin, Agentliyin struktur bölmə rəhbərləri, digər dövlət qurumlarının nümayəndələri və müəssisə rəhbərlərinin iştirak etdiyi konfransın məqsədi məktəbdənkənar təhsilin əhəmiyyətini vurğulamaq, bu sahədə mövcud və beynəlxalq çağırışları müzakirə etmək, onların həlli yollarını araşdırmaq, yerli təcrübələrin mübadiləsini təmin etmək və gələcək perspektivləri müəyyənləşdirmək olub.

Konfransın "Təhsilə ekoloji baxış" mövzusunda panel sessiyasında ekoloji təhsilin uşaqların və gənclərin dünyagörüşünə təsiri, ekoloji şüurun formalaşdırılması və ekoloji problemlərə həssas yanaşmanın təhsil vasitəsilə təşviqi müzakirə edilib. Panelin əsas müzakirə mövzularına ekoloji maarifləndirmənin məktəbdənkənar təhsil proqramlarında yeri, bu istiqamətdə həyata keçirilən layihələr və ekoloji problemlərin həllinə gənclərin cəlb edilməsi daxil olub.

BDU-nun Ekoloji kimya kafedrasının müdiri, kimya elmləri doktoru, professor Sevinc Hacıyeva universitetlərin ekoloji təhsildə rolunun vacibliyi, gənclərin ekoloji biliklərlə yanaşı, praktiki vərdişlər əldə etməsi üçün tətbiq edilən strategiyalar barədə ətraflı məlumat verib. Azərbaycanda ekologiya sahəsində elmi tədqiqatların təhsilə inteqrasiyası, bu istiqamətdə BDU-nun rolu və töhfələri barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Bioekologiya kafedrasının dosenti, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru, "EkoSfera" Ekoloji-Sosial Mərkəzin rəhbəri, Ekoloji Təhsil Fondunun "Eco-Schools" və "Green Key" proqramları üzrə milli koordinatoru, Beynəlxalq Uşaq İqlim Platformasının təsisçisi Firuzə Sultan-zadə isə məktəbdənkənar fəaliyyətlər, müxtəlif layihələr, proqramlar, ekskursiyalar vasitəsilə potensial bacarıqların aşkarlanması, istedadların üzə çıxarılması üçün geniş imkanların yaradılmasından, bunun uşaqlar arasında ekoloji vərdişlərə olan təsirindən bəhs edib.

Konfransın sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, BDU ilə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi arasında 2017-ci ildə anlaşma memorandumu imzalanıb. Memorandum çərçivəsində indiyədək müxtəlif təcrübə proqramları, məlumatlandırıcı sessiyalar, vebinarlar və digər maarifləndirici tədbirlər keçirilib.

# BDU "QS Stars" audit qiymətləndirilməsində 5 ulduza layiq görülüb

***BDU daha bir beynəlxalq uğura imza ataraq, dünyanın nüfuzlu reytinq agentliklərindən biri olan "QS Quacquarelli Symonds" tərəfindən aparılan "QS Stars" auditində 5 ulduz ("excellent" - "mükəmməl") ilə qiymətləndirilib.***

Bu nəticə BDU-nun təhsil, elmi tədqiqatlar, akademik inkişaf, məzunların məşğulluq imkanları, infrastruktur və idarəetmə sahələrində beynəlxalq standartlara uyğun fəaliyyət göstərdiyini bir daha təsdiqləyir. BDU-nun əldə etdiyi yüksək göstərici strateji inkişaf planının uğurla həyata keçirildiyini və müasir ali təhsil tələblərinə uyğun keyfiyyətli tədris mühitinin yaradıldığını sübut edir.

BDU "QS Stars" auditində 9 fərqli kateqoriya üzrə qiymətləndirilib və onlardan 7 kateqoriya üzrə maksimal 5 ulduz ("mükəmməl") əldə edib.

Kateqoriyalar üzrə nəticələr aşağıdakı kimidir:

**Tədris ("Teaching") – 5 ulduz ("mükəmməl")**

BDU tələbələrə yüksək keyfiyyətli tədris mühiti təqdim etdiyi və müasir pedaqoji metodlardan istifadə etdiyi üçün tədris kateqoriyasında ən yüksək qiymətləndirməni alıb. Universitetin peşəkar professor-müəllim heyəti, interaktiv tədris metodları və innovativ yanaşmaları bu uğurun əsas səbəblərindəndir.

**Akademik inkişaf ("Academic Development") – 5 ulduz ("mükəmməl")**

BDU-da tələbələrin akademik inkişafına xüsusi diqqət yetirilir. Universitet daim təhsil proqramlarını yeniləyir, müəllimlərin və tələbələrin elmi fəaliyyətini dəstəkləyir və onların beynəlxalq akademik mühitə inteqrasiyasına şərait yaradır.

**İnfrastruktur ("Facilities") – 5 ulduz ("mükəmməl")**




BDU müasir laboratoriyalar, yüksək səviyyəli elmi-tədqiqat mərkəzləri, tələbələr üçün rahat kitabxana və yataqxana şəraiti ilə seçilir. Universitetin infrastrukturu müasir texnologiyalar və innovativ yanaşmalar əsasında təkmilləşdirilir.

**Məşğulluq ("Employability") – 5 ulduz ("mükəmməl")**

Məzunlarının uğurlu karyera qurmasına dəstək olan BDU əmək bazarının tələblərinə uyğun kadr hazırlığı aparır. BDU məzunlarının dünya miqyasında məşğulluq səviyyəsinin yüksək olması, iş dünyası ilə sıx əməkdaşlıq və peşə yönümlü təcrübə proqramları bu kateqoriyada 5 ulduz qazanmağa imkan yaradıb.

**Ətraf mühitə təsir ("Environmental Impact") – 5 ulduz ("mükəmməl")**

BDU dayanıqlı inkişaf prinsiplərini və ekoloji təşəbbüsləri aktiv şəkildə həyata keçirir. Universitet yaşıl kampus təşəbbüsləri, enerji effektivliyi və ekoloji maarifləndirmə sahəsindəki layihələri ilə yüksək qiymətləndirilib.

**Müxtəliflik, bərabərlik və inklüzivlik ("Diversity, Equity & Inclusion") – 5 ulduz ("mükəmməl")**

BDU multikultural və inklüziv mühitin təmin olunması, beynəlxalq tələbələr üçün geniş imkanlar yaradılması və gender bərabərliyinin təşviqi sahəsində nümunəvi fəaliyyət göstərir. Universitetdə müxtəlif sosial təbəqələrdən olan tələbələr üçün bərabər imkanlar yaradılması da bu uğura töhfə verib.

**Yaxşı idarəçilik ("Good Governance") – 5 ulduz ("mükəmməl")**

BDU səmərəli idarəetmə strategiyaları, şəffaf qərar qəbuletmə prosesi və innovativ universitet rəhbərliyi sayəsində "yaxşı idarəçilik" kateqoriyasında da ən yüksək nəticəni əldə edib.

**Qlobal iştirak ("Global Engagement") – 4 ulduz ("çox yaxşı")**

BDU beynəlxalq əlaqələrini daim genişləndirir, dünya universitetləri ilə əməkdaşlıq edir və beynəlxalq akademik mühitdə fəal iştirak edir. Bu istiqamətdə görülən işlərin intensivləşdirilməsi universitetin gələcək reytinq göstəricilərinə müsbət təsir edəcək.

*Bu nəticə BDU-nun təhsil, elmi tədqiqatlar, akademik inkişaf, məzunların məşğulluq imkanları, infrastruktur və idarəetmə sahələrində beynəlxalq standartlara uyğun fəaliyyət göstərdiyini bir daha təsdiqləyir. BDU-nun əldə etdiyi yüksək göstərici strateji inkişaf planının uğurla həyata keçirildiyini və müasir ali təhsil tələblərinə uyğun keyfiyyətli tədris mühitinin yaradıldığını sübut edir. BDU "QS Stars" auditində 9 fərqli kateqoriya üzrə qiymətləndirilib və onlardan 7 kateqoriya üzrə maksimal 5 ulduz ("mükəmməl") əldə edib.*

**Proqramın üstünlükləri: Kimya ("Program Strength: Chemistry") – 4 ulduz ("çox yaxşı")**

BDU-nun kimya sahəsində əldə etdiyi nəticələr yüksək səviyyədə qiymətləndirilib. BDU bu sahədə tədqiqatların daha da genişləndirilməsi və yeni elmi nailiyyətlərin qazanılması istiqamətində fəaliyyətini davam etdirir.

"QS Stars" ali təhsil müəssisələrinin müxtəlif fəaliyyət sahələrini dəyərləndirən beynəlxalq reytinq sistemidir. Bu sistem universitetlərin güclü tərəflərini və inkişaf etdirilməli sahələrini müəyyən etməyə, eləcə də onların qlobal səviyyədə tanınmasına kömək etməyə yönəlib. "QS Stars" auditində 5 ulduz almaq universitetin yüksək akademik və idarəetmə keyfiyyətinə malik olduğunu sübut edir.

Bu nailiyyət BDU-nun dünya miqyasında nüfuzunun artmasına və beynəlxalq ali təhsil məkanında tanınmasına mühüm töhfə verəcəkdir.

Bu möhtəşəm nəticə BDU kollektivinin fədakar əməyi, müasir ali təhsil tələblərinə uyğun inkişaf strategiyası və keyfiyyətli tədris mühiti yaradılması istiqamətində atılan addımlar sayəsində əldə edilib.

**Universitetimiz gələcəkdə də:**

Beynəlxalq reytinqlərdə mövqeyini daha da gücləndirmək,

Elmi tədqiqatları inkişaf etdirmək və dünya elminə töhfə vermək,

İnnovativ tədris və idarəetmə metodlarını tətbiq etmək,

Qlobal akademik əməkdaşlıqları genişləndirmək və

Tələbələrə yüksək keyfiyyətli təhsil mühiti təqdim etmək istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

BDU rəhbərliyi bu uğurun qazanılmasında əməyi olan bütün akademik və inzibati heyətə, tələbələrə və tərəfdaş qurumlara dərin minnətdarlığını bildirir. BDU bu uğurla kifayətlənməyərək, beynəlxalq akademik arenada daha böyük nailiyyətlərə imza atmaq əzmindədir!

BDU ölkədə "QS Stars" auditindən keçən digər ali təhsil müəssisələrinə də uğurlar arzulayır və onların da qlobal akademik mühitdə layiqli mövqeyə sahib olmalarını dəstəkləyir.

# Görkəmli alim və qayğıkeş müəllim Əziz Məmmədov

***Həyatının 65 ili Bakı Dövlət Universiteti ilə bağlı olan, uzun illər Fəlsəfə kafedrasının professoru olmuş Əziz Bəşir oğlu Məmmədov 1938-ci il dekabr ayının 20-də Şamaxı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Bakı şəhərində orta məktəbi qızıl medalla bitirərək 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə daxil olmuş, 1960-cı ildə oranı əla qiymətlərlə bitirmişdir. 1960-1962-ci illərdə ADU-nun Molekulyar optika kafedrasında baş laborant vəzifəsində çalışmışdır.*** O, 1962-1965-ci illərdə ADU-nun Fəlsəfə kafedrasının əyani aspirantı olmuş, 1965-ci ildə həmin kafedranın müəllimi kimi fəaliyyətə başlamışdır. 1967-ci ildə "Müasir fizikada məkan-zaman problemi" mövzusunda namizədlik, 1991-ci ildə "Dialektik idrak və ümumelmi tədqiqat metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ə.Məmmədov 1996-cı ildən BDU-nun fəlsəfə kafedrasının professoru idi. Ə.Məmmədov respublikamızda fizikanın və ümumən təbiətşünaslığın fəlsəfi problemlərinin tədqiqi ilə məşğul olmuşdur.



Ə.Məmmədov namizədlik dissertasiyasında nisbilik nəzəriyyəsinin məkan-zaman problemi sahəsində ciddi inqilabi dəyişikliklər yaratmış, relyativist effektlərinin orijinal izahını vermişdir. Onun müasir epistemologiyanın nəzəri və empirik metodlarının tədqiqinə həsr olunmuş doktorluq dissertasiyasında elmi idrak metodlarının yeni təsnifatı təqdim edilmişdir.

Təbiətşünas filosof Əziz Məmmədov fizikanın fəlsəfi problemləri, təbiətşünaslığın konseptual əsasları, idrak nəzəriyyəsi, epistemologiya, elmi idrakın metodoloji prinsipləri, elmşünaslığın aktual məsələləri, sinergetika, Lütfi Zadənin qeyri-səlis məntiq və qeyri-səlis çoxluq nəzəriyyəsi kimi problemləri müxtəlif illərdə yazdığı çoxsaylı monoqrafiyalarında və məqalələrində dərindən işləmişdir.

Professor Ə.Məmmədov idrak nəzəriyyəsi və elmi idrakın metodologiyası sahəsində də ardıcıl tədqiqatlar aparmışdır. Fəlsəfənin nəzəri problemlərinin öyrənilməsinə geniş imkan açan idrak nəzəriyyəsinin aktual problemləri "Rasionallıq və qeyri-rasionallıq: "Fəlsəfi-metodoloji təhlil", "Dialektik idrak və ümumelmi tədqiqat metodları", "Elmi idrakın metod və formaları", "Elmi idrakın metodları", "Yaradıcılıq və intuisiya haqqında fəlsəfi düşüncələr" monoqrafiya və yüzlərlə məqalələrində işıqlandırılmışdır. Bu əsərlərdə metod anlayışının yeni orijinal tərifi, metod və nəzəriyyənin qarşılıqlı əlaqəsinin bir sıra aspektlərinin aşkarlanması və mənalandırılması, metodologiyanın təşkilinin və struktur səviyyələrinin sistemli təhlili, elmi idrak metodlarının yeni təsnifatının verilməsi, idrak prosesində rasional və qeyri-rasional əməliyyatların müqayisəli təhlili maraq doğurur və gələcək tədqiqatlar üçün istiqamət verir.

Fizikanın fəlsəfi problemlərini tədqiq edərkən professor Ə.Məmmədov klassik fizikadan tutmuş kvant mexanikası və elementar hissəciklər nəzəriyyəsinin müasir fəlsəfi problemlərinə qədər ən müxtəlif fiziki məsələlər, virtual hissəciklər, kvarklar haqqında fundamental fikirlər irəli sürmüşdür. O, bu problemləri "Müasir fizika və məkan-zaman problemi", "Dialektik idrak və eksperimental metod", "Simmetriya, asimmetriya və invariantlıq", "Müasir fizikanın metodoloji prinsiplərinin fəlsəfi təhlili", "Materiya və hərəkət", "Müasir fizikaya fəlsəfi baxış" adlı monoqrafiyalarında dərindən araşdırmışdır. Ə.B.Məmmədovun 2002-ci ildə nəşr olunan "Müasir fizikaya fəlsəfi baxış" adlı kitabı fizikanın nəzəri məzmununun fəlsəfi, metodoloji və dünyagörüşü təhlilinə həsr olunmuş fundamental bir tədqiqatdır.

Müasir dövrdə insanların təbii-elmi biliklərə ehtiyacını, müasir təbiətşünaslığın aktual problemlərinin konseptual şəkildə öyrənilməsi zərurətini nəzərə alan professor Əziz Məmmədov öz elmi fəaliyyətini həm də bu istiqamətə yönəldərək müasir təbiətşünaslığın müxtəlif sahələrində əldə edilmiş nailiyyətləri ümumiləşdirmək və dünyanın müasir elmi mənzərəsi haqqında dərin bir təəssürat yaratmaq məqsədilə tədqiqatlar aparmış, həmin problemləri "Müasir təbiətşünaslığa konseptual yanaşma", "Təbii-elmi biliyin fəlsəfi əsasları" monoqrafiyalarında, habelə 3 kitabdan ibarət olan "Müasir təbiətşünaslığın konsepsiyaları" irihəcmli müxtəlif dərsliklərində elmi ictimaiyyətə təqdim edilmişdir. Professorun "Müasir təbiətşünaslığa konseptual yanaşma" əsəri 2005-ci ildə Moskvada nəşr olunmuşdur.

Əziz Məmmədovun tədqiqat sahəsinə XX əsrin 70-ci illərində Avropada yaranmış yeni elmi istiqamət olan sinergetikanın epistemoloji dəyəri, onun fəlsəfi fikrin inkişafına gətirdiyi yeniliklər və Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi də daxil idi. Respublikamızda bu sahələrin ilk tədqiqatçılarından biri məhz Əziz müəllim olmuşdur. Onun "Sistemli yanaşma və sinergetik paradiqma" adlı monoqrafiyasında, çap etdirdiyi çoxsaylı məqalələrdə sinergetika elminin bir sıra problemləri geniş tədqiq olunmuşdur.

"İnsan haqqında fəlsəfi düşüncələr", "Elmi idrak və insan problemi", "Təbii-elmi idrak və insan dünyası" adlı əsərlər isə Əziz Məmmədovun yaradıcılığında əsas yer tutan insan problemini əhatə edir.

Əziz müəllim uzun müddət "Fəlsəfə və sinergetika" adlı ümumrespublika seminarının sədri olmuş, buraya özünün məzmunlu məruzələri ilə geniş auditoriya cəlb edə bilmişdi. O, həmçinin "Müasir təbiətşünaslığın nəzəri-praktiki və metodoloji aspektləri" məqalələr külliyyatının elmi redaktoru olmuşdur.

Əziz Məmmədovun bir sıra əsərləri xarici ölkələrdə, o cümlədən ABŞ-da, İngiltərədə, Rusiyada, Türkiyədə, Macarıstanda, Qazaxıstanda, Ukraynada çap olunub. Ə.Məmmədov "Vektor" Beynəlxalq Elm Mərkəzinin 2003-cü ildə keçirdiyi rəy sorğusuna əsasən "XXI əsr Azərbaycan alimləri" Beynəlxalq layihəsinin qaliblərindən biri olmuşdur.

Əziz Məmmədov rəhbərliyi altında 15 namizədlik və 2 doktorluq dissertasiyası hazırlanmışdır. Professor Ə.Məmmədov 22 il müddətində BDU-da fəaliyyət göstərən doktorluq müdafiə şurasının elmi katibi olmuş, 2017-2019-cu illərdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiyasının Ekspert Şurasının sədri vəzifəsini icra etmişdir.

Fəlsəfə və təbiətşünaslıq elmlərinin inkişafı sahəsində xidmətləri nəzərə alınan professor Ə.Məmmədov Rusiya Pyotr Elmlər Akademiyasının, Avrasiya Elmlər Akademiyasının, Lütfi Zadə adına Beynəlxalq Elmlər Akademiyasının, Azərbaycan Energetika Akademiyasının həqiqi üzvü, Rusiya Fəlsəfə cəmiyyətinin üzvü idi. O, elm və təhsili inkişaf etdirilməsi qarşısındakı xidmətləri nəzərə alınaraq fəaliyyət göstərdiyi BDU-da "İlin müəllimi" adına layiq görülmüş, 2015-ci ildə ən yaxşı tədqiqatçı alim kimi Azərbaycan Respublikası "Avropa Nəşr Mətbuat Evi"nin "Qızıl medalı", 2014-cü ildə Azərbaycan Respublikası "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə, dəfələrlə Elm və Təhsil Nazirliyinin və BDU-nun rektorluğunun fəxri fərmanları ilə təltif olunmuşdu.

Görkəmli elmşünas alim, professor Əziz Məmmədov 60 ildən çox bir müddətdə Bakı Dövlət Universitetində işləmiş, müxtəlif fakültələrdə Fəlsəfə elmini tələbələrə tədris etmişdir. Sosial elmlər və psixologiya fakültəsində Fəlsəfə ixtisası açıldıqdan sonra bu sahədə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına böyük əmək sərf etmiş, bakalavr və magistratura pillələrində əsas fənlərdən mühazirələr aparmış, bakalavr buraxılış işlərinə və magistr dissertasiyalarına rəhbərlik edərək tələbələrinə elmi vərdişlər aşılamışdır. Onun BDU-nun müxtəlif fakültələrində oxuduğu və tələbələrin həmişə maraqla qarşıladıqları mühazirələri özünün yüksək nəzəri və elmi-metodik səviyyəsi ilə fərqlənirdi

Əziz Məmmədov təbiətən xeyirxah insan, öz peşəsini ürəkdən sevən müəllim, zəhmətkeş alim idi. Əziz müəllimin 85 yaşında sıralarımızı tərk etsə də öz humanizmini, qayğıkeşliyini, elmi əzmini bizə nümunə qoydu.

***Kəmalə Pənahova,***
*Fəlsəfə kafedrasının müdiri,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*dosent*

# Su çərşənbəsi – dirilik, sağlamlıq çərşənbəsi

***Novruz xalqımızın milli-mənəvi dəyərlərinin ən qədim və zəngin tarixə malik bayramlarından biridir. Novruz adətləri bu gün də ilkin mühafizəkarlığını qoruyub saxlayır. Novruz çərşənbələrinin hərəsinin özünəməxsus mərasimləri var. Mərasimlərdə xalqımızın dünya və kainat haqqında ilkin təsəvvürləri öz əksini tapır. Bu mərasimlərin keçirilməsi və bayrama hazırlıqlar Novruzun əsas ünsürü olan Su çərşənbəsi ilə başlayır.***



Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə Su çərşənbəsi ilk çərşənbə kimi qeyd edilir. Xalq arasında o, "Əvvəl çərşənbə", "Əzəli çərşənbə", "Gözəl çərşənbə", "Sular Novruzu", "Gül çərşənbə", "Sel çərşənbə", "Zəmzəm çərşənbə", "Çilli beçə çərşənbə" kimi də tanınır. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti ifadə olunur. Su sağlamlıq, paklıq, tale göstərmə, müqəddəslik, dirilik, ölməzlik, xoşbəxtlik gətirən bir inam rəmzi kimi çıxış edir.

Suyun "tale göstərmə" inancına görə əcdadlarımız "Tas falı" ("Qızlar desin", "Çərşənbə deyişməsi", "Kuzə falı", "Dilək falı" və s.) deyilən fal-açma ilə həddi-buluğa çatmış qızların gələcəkdəki talelərinə baxmışlar. Çərşənbə gecəsində axşam qadınlar, qızlar, oğlanlar kiminsə evinə yığılıb çilə çıxarardılar. Qızlar su ilə fal açıb bəxtlərini sınayardılar.

Xalq əfsanələrində, məhəbbət və qəhrəmanlıq dastanlarında suyun müxtəlif funksiyalar daşıdığı motivlərlə yanaşı, dirilik rəmzi olduğuna da rast gəlinir. Qəhrəmana gücü, qüvvəni, qeyri-adi qabiliyyətləri verən vasitələrin biri də sudur. Folklorda "dirilik suyu" aktiv işlənir. Azərbaycan folklorunda dirilik suyu Şirvanla əlaqəli verilir. Rəvayətlərdə, nağıllarda, Nizaminin "İsgəndərnamə"sində dirilik suyu içmək Xıdıra nəsib olur. "İsgəndərnamə"də İsgəndər dirilik suyunu axtarsa da, tapa bilməsə də, onun hikmətini dərk edir. "Koroğlu" dastanındakı Qoşabulaq da dirilik bulağı, ölməzliyin rəmzidir. Qoşabulağın suyundan içəndən sonra Koroğluya qeyri-adi aşıqlıq, şairlik, nərə, Qırata möcüzəvi xüsusiyyətlər gəlir.

Azərbaycan türklərinin inamlarında suyun kultlaşması onun əcdad olması, övlad verməsi, and yerinə çevrilməsi digər faktlarda gerçəkləşmişdir. İlkin başlanğıc olan su insan nəslinin artımından sonra çay, bulaq, göl və s. şəkillərdə inamlar sisteminə daxil olmuşdur. Türk dünyagörüşündə suya tapınmanın izlərindən Su Tanrısı obrazı formalaşmışdır.

Su çərşənbəsində süfrələr bəzədilir. Təmiz sudan hazırlanmış pürrəngi çay, müxtəlif şirniyyat və yeməklər, əsasən də plov süfrənin nemətləri sırasında olur. Bu çərşənbədə süfrəyə səməni qoyulmur. Təmiz, lal suyun süfrədə olması isə vacibdir. Əgər həmin su aşarsa, bu bolluğun rəmzi kimi qiymətləndirilir.

Su Tanrının müqəddəs nemətlərindən biridir. Suyu müqəddəs bilən xalqımız bu çərşənbədə su ilə bağlı ayinləri həyata keçirərək bayramın ilk günlərini qarşılayır.

Axar sularımız bulanmasın! Tanrı ölkəmizə həmişə əmin-amanlıq, bolluq nəsib etsin. Su çərşənbəniz mübarək!

# BDU-da akademik Şahin Mustafayevin “Təbriz livasının müfəssəl dəftəri” kitabının təqdimatı

***Fevralın 19-da BDU-da Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevin iki cildlik “Təbriz livasının müfəssəl dəftəri” kitabının təqdimatı keçirilib.***






Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, akademik Şahin Mustafayevin üzərində böyük əmək sərf etdiyi “Təbriz livasının müfəssəl dəftəri” həm tarixi mənbə kimi, həm də dövrün mənzərəsini öyrənmək baxımından sanballı tədqiqat işidir. Rektor qeyd edib ki, Azərbaycan tarixşünaslığında Osmanlı maliyyə-vergi dəftərlərinin əvəzsiz rolunu ilk dəfə gündəmə gətirən akademik Ziya Bünyadov olub. Onun təşəbbüsü ilə ötən yüzilliyin 80-ci illərində Cənubi Qafqaz və Azərbaycan ərazilərinə aid Osmanlı dəftərlərinin sistemli şəkildə öyrənilməsinə başlanılıb. Bundan sonra bir neçə tarixçi-alimimiz bu istiqamətdə tədqiqatlar aparıb: “Müstəqillyimizi bərpa etdikdən sonra Azərbaycan tarixşünaslığında ölkəmizin ayrı-ayrı vilayətlərinin və qonşu bölgələrin orta əsrlər sosial-iqtisadi tarixinin həmin dövr dövlətlərin arxiv materialları əsasında daha dərindən araşdırılması imkanı yaranıb. Xüsusilə Osmanlı arxivlərinin materialları, maliyyə-vergi reyestrləri – “tapu təhrir dəftərləri” əsasında araşdırılması ənənəvi elmi istiqamətlərdən birinə çevrilib. “Təbriz livasının müfəssəl dəftəri” kitabı da belə tədqiqatlardan birinin nəticəsidir. 2017-2019-cu illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən tədqiqat layihəsi çərçivəsində Azərbaycanın üç tarixi vilayətinin – Təbriz, Marağa və Urmiyanın Osmanlı müfəssəl dəftərlərinin transliterasiya və nəşrə hazırlanması ilə bağlı işlər yerinə yetirilib. Adıçəkilən həmin layihənin nəticəsi olaraq “Təbriz livasının müfəssəl dəftəri” adlı iki cildlik kitab ortaya çıxıb”.

Elçin Babayev diqqətə çatdırıb ki, BDU artıq bu materiallar əsasında tədqiqatların aparılması üçün işlərə başlayıb. BDU-nun magistratura səviyyəsində “Təbriz livasının müfəssəl dəftəri”nin materialları əsasında magistrlik dissertasiyaları üçün mövzular planlaşdırılıb: “İnanırıq ki, magistranlarımız bu zəngin mənbənin materiallarından istifadə edərək sanballı elmi-tədqiqat işləri aparacaqlar. Vətənimizin tarixinin daha dərindən öyrənilməsinə öz töhfələrini verəcəklər”.

Kitabın müəllifi, Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev kitabın çapı işini öz üzərinə götürən BDU rəhbərliyinə təşəkkür edib. Bildirib ki, sovet dövrü Azərbaycan tarixşünaslığında daha çox ərəb və fars mənbələrinə müraciət olunub. XVIII əsrin 20-ci illərinə aid məlumatları özündə əks etdirən Osmanlı arxivlərindən isə ümumiyyətlə istifadə olunmayıb. Bu dəftərdə 1720-ci ildən başlayaraq Osmanlı hakimiyyətinin hökm sürdüyü Təbriz ərazisində əhalinin vergi siyahısı öz əksini tapıb. Bu mənbə ilə dövrün küçə, yer, insan adları, məhsuldarlıq səviyyəsi, əhalinin sayı və məskunlaşma faizi kimi məlumatları dəqiqliklə əldə etmək, dövrün iqtisadi vəziyyətinə işıq salmaq mümkündür. Təbriz dəftəri əsasında bu torpaqlarda yalnız Osmanlı vergitoplama praktikasının özəllikləri deyil, həm də sosial münasibətlər, şəhər həyatı, kənd təsərrüfatı, tarixi demoqrafiya və Təbrizin XVIII əsrin 20-ci illərindəki toponimikasını öyrənmək mümkündür.

BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı, professor Eynulla Mədətli, BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, yazıçı Həmid Herisçi çıxışlarında “Təbriz livasının müfəssəl dəftəri” kitabının Azərbaycan tarixşünaslığının böyük uğuru olduğunu bildiriblər. Qeyd ediblər ki, tariximizin qorunması və həqiqətlərin üzə çıxarılması baxımından mükəmməl nümunə olan əsər geniş tədqiqatlar üçün başlanğıcdır.

Qeyd edək ki, iki cilddən ibarət kitab BDU Elmi Şurasının qərarı ilə çap olunub.

# BDU Özbəkistanın Daşkənd Beynəlxalq Maliyyə İdarəetməsi və Texnologiyaları Universiteti ilə anlaşma memorandumu imzalayıb





***Fevralın 19-da Özbəkistanın Daşkənd Beynəlxalq Maliyyə İdarəetməsi və Texnologiyaları Universitetinin rektoru Azizxon Nodirov, rektorun gənclər məsələləri üzrə müşaviri Hasan Şaripov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Zarifjon Hatamov və Malayziyanın Asiya-Sakit Okean Texnologiya və İnnovasiya Universitetinin Keyfiyyət idarəetməsi üzrə direktoru, baş auditor, reytinq və peşəkar texnologiya mütəxəssisi Nur Zahdi Aldindən ibarət nümayəndə heyəti BDU-da olub.***

BDU rektoru Elçin Babayev qonaqlara Universitetin tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, BDU Özbəkistanın ən nüfuzlu universitetləri ilə sıx əməkdaşlığa malikdir. Daşkənd Beynəlxalq Maliyyə İdarəetməsi və Texnologiyaları Universiteti ilə də elm və təhsil sahəsində müxtəlif əməkdaşlıq imkanları mövcuddur.

Daşkənd Beynəlxalq Maliyyə İdarəetməsi və Texnologiyaları Universitetinin rektoru Azizxon Nodirov rəhbərlik etdiyi universitetin əsas fəaliyyət istiqamətləri barədə danışıb. Universitetlər arasında qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşdə akademik əməkdaşlığın gücləndirilməsi üçün birgə tədris proqramlarının qurulması, tələbə mübadiləsi, beynəlxalq reytinqlər sahəsində əməkdaşlıq, yay və qış məktəblərinin təşkili kimi məsələlər müzakirə edilib.

Daha sonra iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum birgə tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin mübadiləsini, ortaq akademik proqramların yaradılmasını, akademik mobilliyin artırılmasını nəzərdə tutur. Hər iki universitet müştərək konfranslar, seminarlar və digər elmi tədbirlər təşkil edərək, bilik və təcrübə mübadiləsini gücləndirəcək.

# Geologiya fakültəsinin 3 ixtisasına maraq artıb

***2024/2025-ci tədris ilində Geologiya fakültəsinin “Geologiya və geofizika mühəndisliyi”, “Mədən mühəndisliyi”, “Meliorasiya mühəndisliyi” ixtisaslarına qəbul olan tələbələrin sayı artıb.***

Hazırda Geologiya fakültəsində 721 tələbə təhsil alır. Son 3 tədris ilində fakültədə magistratura səviyyəsinə dövlət sifarişli yerlərin sayı artıb. 2024/2025-ci tədris ilində bu rəqəm 95 faiz təşkil edib. Əvvəlki tədris illərində fakültədə magistraturaya qəbul zamanı başqa ali məktəblərin məzunları üstünlük təşkil edib. 2024/2025-ci tədris ilində bu rəqəm BDU məzunlarının xeyrinə dəyişib.

Ötən il fakültə alimləri tərəfindən 55 elmi məqalə dərc olunub. Onlardan 11-i “Web of science”, 3-ü “Scopus” bazasında indekslənən jurnalların payına düşür.

# BDU-nun dosenti şahmat turnirinin qalibi olub

***Fevralın 28-də Bakı Şəhər Gənclər və İdman İdarəsi və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin professor, müəllim heyəti və əməkdaşları arasında şahmat üzrə Nəsimi rayonu turniri keçirilib.***

Turnirdə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin İqtisadiyyat kafedrasının dosenti Leyla Xasıyeva II yerə layiq görülüb.

Əməkdaşımızı təbrik edir, uğurlar arzulayırıq!



# Jurnalistika fakültəsində tanınmış jurnalist Hacı Hacıyevin 100 illik yubileyi qeyd olunub

***Fevralın 14-də BDU, Azərbaycan Mətbuat Şurası və Azərbaycan Jurnalistlər Birliyinin birgə təşkilatçılığı ilə tərcüməçi, publisist, əməkdar jurnalist Hacı Hacıyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***



Tədbirin moderatoru, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid ölkəmizin mətbuat tarixində xüsusi xidmətləri olan Hacı Hacıyevin milli mətbuat ənənələrinə sadiqlik prinsipinin bu gün də qorunduğunu bildirib. Qeyd edib ki, o, Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi, Azərbaycan Jurnalistlər Birliyinin sədri, 2006-cı ildən isə qurumun fəxri sədri vəzifələrində çalışıb. Onun ədəbi yaradıcılığında bədii tərcümə və publisistika xüsusi yer tutub. “Həsən bəy Zərdabi mükafatı” da məhz Hacı Hacıyevin təşəbbüsü ilə təsis edilib. Prinsipiallığı, qətiyyəti və insanlığı ilə iz qoyan Hacı Hacıyevin xatirəsi hər zaman əziz tutulacaq və anılacaq.

Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı milli mətbuatın 150 illik yubileyi ərəfəsində medianın inkişafı və ənənələrinin qorunması istiqamətində böyük işlər görmüş Hacı Hacıyevin xidmətlərini qeyd etməyin mənəvi borc olduğunu deyib. Bildirib ki, hələ keçmiş İttifaq dövründə Azərbaycan Jurnalistlər Birliyində millilik məsələsini qabardan Hacı Hacıyevin özü də milli adam, böyük jurnalist idi. Məhz onun təklifi ilə Milli Mətbuat Günü Həsən bəy Zərdabinin “Əkinçi” qəzetinin işıq üzü gördüyü günə uyğun olaraq 22 iyul oldu. Milli mətbuatımız Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə dövlət qayğısı ilə əhatə olundu, daha da inkişaf etdi.

Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev bildirib ki, ölkəmizdəki jurnalist təşkilatlarının fəaliyyəti tədris prosesində tələbələrə öyrədilir. Hacı Hacıyevin uzun illər rəhbərlik etdiyi Azərbaycan Jurnalistlər Birliyinin fəaliyyəti haqqında da “Jurnalistikaya giriş” fənnində geniş məlumat verilir. Gənc jurnalistlər bu təşkilatların məqsədləri, iş prinsipləri ilə tanış olurlar.

Sonra çıxış edən BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, Ərəb filologiyası kafedrasının müdiri, dosent Vüqar Qaradağlı, Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini Şahin Babayev, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professor əvəzi Sabir Məmmədli və Hacı Hacıyevin qardaşı oğlu Şahin Hacıyev xatirələrini bölüşüblər.

# Jurnalistika fakültəsində professor Yalçın Əlizadənin 85 illik yubileyi qeyd olunub

***Jurnalistika fakültəsində Əməkdar jurnalist, professor Yalçın Əlizadənin 85 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***



Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev professor Yalçın Əlizadənin fakültənin tarixində əvəzsiz yeri olduğunu deyib. Bildirib ki, prinsipiallığı ilə yaddaşlarda qalan Yalçın Əlizadə 1962-ci ildə Universiteti bitirdikdən sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışıb. 1971-1974-cü illərdə BDU-nun Jurnalistika fakültəsinin əyani aspiranturasında təhsil alıb. 1974-cü ildə "Azərbaycanda radiojurnalistikanın təşəkkülü və inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. O, 1974-1981-ci illərdə BDU-nun Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb. 1979-1989-cu illərdə Universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri olub. 1982-1999-cu illərdə Televiziya və radio jurnalistikası kafedrasının müdiri vəzifəsində çalışıb. 1999-2012-ci illərdə Jurnalistika fakültəsinin dekanı olub. Yalçın Əlizadə Azərbaycanda radio jurnalistikasının nəzəri əsaslarını fundamental sürətdə araşdıran ilk alimlərdən, bu sahənin ən yaxşı tədqiqatçılarından biri idi. O, televiziya və radio jurnalistikasının aktual problemlərinə dair 100-ə yaxın elmi məqalənin, 4 kitabın müəllifi olub. 2023-cü il dekabrın 3-də vəfat edən professor Yalçın Əlizadə səmərəli fəaliyyətinə görə “Əməkdar jurnalist” fəxri adı, “Tərəqqi” medalı və 3-cü dərəcəli “Əmək” ordeni ilə qiymətləndirilib: “Müəllimimiz, dekanımız olmuş Yalçın müəllimin işıqlı xatirəsi daim qəlbimizdə yaşayacaq”.

Sonra BDU TV-nin professor Yalçın Əlizadənin həyat yoluna həsr etdiyi videoçarx izlənilib.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli Yalçın Əlizadəni “fakültənin doğma adamı” adlandırıb. Qeyd edib ki, fakültədə özündən sonra məktəb yaradan Şirməmməd Hüseynov, Nəsir İmanquliyev, Tofiq Rüstəmov, Famil Mehdi və Yalçın Əlizadə kimi müəllimlərin həyatı tələbələr üçün tədris edilən dərslər qədər vacibdir: “Düşünürəm ki, fakültəmizdə belə əbədi iz qoyan və həyatı məktəbə çevrilən müəllimlərimiz tələbələrimiz – gənc jurnalistlər tərəfindən də öyrənilməli, tanınmalı və tanıdılmalıdır”.

Daha sonra Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova, professor Akif Rüstəmov, fakültənin elmi işlər üzrə dekan müavini, dosent Sevinc Əliyeva, sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev, tədris işləri üzrə dekan müavini Esmira Rövşənova, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri, dosent Aynur Nəsirova, “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin mətbuat katibi Yadigar Cəfərli, Multimedia və elektron kommunikasiya kafedrasının müəllimi Nəmənd Rüstəmov, Tədris teleradio studiyasının müdiri Ramin Rzayev, "Jurnalistika" elmi-tədqiqat laboratoriyasının elmi işçisi Günay Məmmədova, Milli mətbuat tarixi kafedrasının elmi işçiçi Elmira Həsənova və Yalçın Əlizadənin qızı, Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının dosenti Aytən Əlizadə professorla bağlı xatirələrindən söz açıblar.

# BDU-da “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda V Beynəlxalq elmi konfrans

***Fevralın 27-də Tarix fakültəsinin təşkilatçılığı ilə “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda V Beynəlxalq elmi konfransı keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov bildirib ki, dünya azərbaycanlılarının həmrəyliyini təmin edən mühüm vasitələrdən biri də milli ideologiyadır. Bu gün dünya azərbaycanlılarını bir amal və əqidə ətrafında birləşdirən azərbaycançılıq ideologiyası milli birlik və həmrəyliyi təmin edən universal ideoloji formul kimi çıxış etməkdədir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva edir. Professor İbrahim Zeynalov qeyd edib ki, dünya azərbaycanlıları ilə bağlı ərazi, əhali, tarixi-demoqrafiya problemlərinin, o cümlədən köçlər, soyqırımları və digər mövzuların tədqiqi xüsusi əhəmiyyət kəsb etdi. Bu məqsədlə 1994-cü ildə Tarix fakültəsində “Dünya azərbaycanlıları: tarixi demoqrafiya” elmi-tədqiqat laboratoriyası yaradılıb. 1997-ci ildə Tarix fakültəsinin təşkilatçılığı ilə “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda ilk elmi konfrans təşkil olunub. 2016-cı ildən ənənəvi olaraq davam edən konfransın əsas tərəfdaşı Diaspora İş Üzrə Dövlət Komitəsi olub. Builki konfransda ənənəvi mövzularla yanaşı, Qarabağda quruculuq prosesi, Qərbi Azərbaycanın tarixi, siyasi və etno-demoqrafik proseslər də elmi müstəvidə müzakirə ediləcək. Konfransda yerli alimlərlə yanaşı, Türkiyə, Ukrayna, Gürcüstan, Polşa və digər ölkələrdən də mütəxəssislər iştirak edir.

BDU-nun Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov, Milli Məclisin üzvü Naqif Həmzəyev, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev çıxışlarında Tarix fakültəsinin təşkilatçılığı ilə belə bir konfransın silsilə şəkildə keçirilməsinin əhəmiyyətini vurğulayıb, bu istiqamətdə elmi tədqiqatlara böyük ehtiyac olduğunu bildiriblər.

10 bölmədə davam edən konfrans öz işini fevralın 28-də yekunlaşdırıb.

# BDU, AQUPDK və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə “Qızların təhsil hüququ” mövzusunda konfrans keçirilib

*Konfransın açılışında çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, müasir Azərbaycanın qız və qadınları ölkənin siyasi və ictimai həyatında, elm, təhsil və mədəniyyət sahələrində fəal iştirak edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uğurla həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda qızların təhsili, qadınların elmi araşdırmalarda və idarəetmədə iştirakı sürətlə dəyişən müasir dünyanın tələblərinə, yeni çağırışlara cavab verir. Hər bir cəmiyyətdə qızların və qadınların təhsilə və elmi fəaliyyətə cəlb edilməsi gender bərabərliyinin mühüm istiqamətlərindən biridir. Qadın və kişilərin bərabər təhsil almaları, cinsi mənsubiyyətə fərq qoyulmadan elmi fəaliyyətlə məşğul olmaları ölkə vətəndaşlarının hüquq bərabərliyinin fundamental əsasını təşkil edir.*






***Fevralın 20-də Bakı Dövlət Universiteti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Qızların təhsil hüququ” mövzusunda konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, müasir Azərbaycanın qız və qadınları ölkənin siyasi və ictimai həyatında, elm, təhsil və mədəniyyət sahələrində fəal iştirak edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uğurla həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda qızların təhsili, qadınların elmi araşdırmalarda və idarəetmədə iştirakı sürətlə dəyişən müasir dünyanın tələblərinə, yeni çağırışlara cavab verir. Hər bir cəmiyyətdə qızların və qadınların təhsilə və elmi fəaliyyətə cəlb edilməsi gender bərabərliyinin mühüm istiqamətlərindən biridir. Qadın və kişilərin bərabər təhsil almaları, cinsi mənsubiyyətə fərq qoyulmadan elmi fəaliyyətlə məşğul olmaları ölkə vətəndaşlarının hüquq bərabərliyinin fundamental əsasını təşkil edir. Ölkədə qadınlar ali təhsilin magistratura səviyyəsində çalışan, doktoranturada təhsil alan, elmin inkişafına töhfə verən fəlsəfə doktorlarının yarıdan çoxunu təşkil edir. Bu gün dünyada informatika və riyaziyyat, texnologiya və mühəndislik kimi ixtisaslar üzrə təhsil alanların 35 faizini qızlar təşkil etdikləri halda, bizim ölkədə bu rəqəm 40 faiz olmaqla orta dünya göstəricisindən artıqdır. Azərbaycan dövləti ölkə vətəndaşlarının, o cümlədən qızların və qadınların əlçatan və keyfiyyətli təhsil almaları, müxtəlif peşə və ixtisaslara yiyələnmələri, öz bilik və bacarıqları ilə insan kapitalını zənginləşdirmələri üçün hər bir şərait yaradıb. Qızların təhsili yalnız onların gələcək həyat rifahının təmin olunması üçün deyil, həm də ailə dəyərlərinin qorunması və möhkəmlənməsi, övladlarının düzgün tərbiyə olunması, bütövlükdə isə cəmiyyətin tərəqqisi üçün həlledici rola malikdir.

Rektor bildirib ki, ölkənin ilk və ən böyük ali təhsil müəssisəsi olan BDU-da hazırda bakalariatura və magistratura təhsil səviyyələrində 25000-ə yaxın (24739 nəfər) tələbə təhsil alır. Onlardan 16641 nəfəri, təxminən 67, 2 %-i qızlardır. Bu il BDU-ya 5414 tələbə qəbul olunub, onlardan 3803 nəfəri, başqa sözlə, 70 faizi qızlardır. Son imtahan sessiyasında qız tələbələrin oğlan tələbələrlə müqayisədə müvəffəqiyyət göstəricisi təxminən 20% çox olub. BDU-nun qız tələbələri təhsillərini uğurla davam etdirməklə yanaşı, Universitetin ictimai həyatında da fəal iştirak edirlər. BDU-nun Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, “BDU könüllüləri” təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin üzvlərinin əksəriyyətini qızlar təşkil edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul edilən dövlət proqramları və məqsədyönlü islahatlar insan kapitalının inkişafının təmin etməklə yanaşı, qızların təhsili imkanlarını da genişləndirir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu sahədə mühüm layihələr həyata keçirir. Bu fəaliyyətin stimullaşdırdığı bir neçə layihə də Dövlət Komitəsi tərəfindən reallaşdırılmaqdadır. 2021-ci ildən etibarən Elm və Təhsil Nazirliyi ilə birgə həyata keçirilən "Gənc qızların təhsilinə dəstək" layihəsi, Təhsilin İnkişafı Fondu ilə birgə fəaliyyət nəticəsində təsis olunmuş "Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı” da bunlardandır. "Sən tək deyilsən" layihəsi çərçivəsində "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramı təsis edilib.

Komitə sədri bildirib ki, qızların təhsili həm də cəmiyyətin tərəqqisi və iqtisadi güclənməsi baxımından vacib amil olmaqla gələcəyə qoyulan sərmayə kimi dəyərləndirilməlidir. Aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində qızların ali təhsil müəssisələrinə qəbulunu təşviq etmək, onların akademik inkişafına dəstək olmaq və təhsildə gender bərabərliyini təmin etmək əsas hədəflərdən biridir. Bunun üçün hazırda müasir təhsil imkanlarını və innovasiyaları təşviq edən bir mühit formalaşdırılmaqdadır. Bakı Dövlət Universiteti ilə imzalanacaq əməkdaşlıq memorandumu Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu ilə əməkdaşlığı daha da genişləndirmək məqsədi daşıyır: “Memorandum çərçivəsində ailə institutu, milli dəyərlərlə bağlı elmi tədqiqatlar aparılacaq, sorğular keçiriləcək. Birgə hədəflər bizi məqsədlərimizə daha tez çatdıra bilər”.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında deyib ki, Azərbaycanda qızların təhsili uzunmüddətli hədəflərdəndir: "Təhsil sahəsində görülən işlərin nəticəsi adətən ən tezi 20 il müddətinə görülür. Məsələn, bu gün təhsil almayan qız 10-15 ildən sonra ana olur və övladı növbəti 20 ilə əmək bazarına daxil olur. Təxminən 35 ildən sonrakı reallığı - bu günün fəaliyyəti və ya fəaliyyətsizliyini müşahidə etmiş oluruq. Bu səbəbdən qızların təhsilə əlçatanlığı və keyfiyyətli təhsil alması vacib amildir. Bu gün hələ də dünyanın bəzi yerlərində qızların təhsil hüquqları tamamilə məhdudlaşdırılır. Odur ki, təhdidləri açıq şəkildə müzakirə etməyə ehtiyac var".

Nazir bildirib ki, bu gün daha çox qız müxtəlif pillələrdə təhsilə cəlb olunur: “Azərbaycanda 20 il əvvəllə müqayisədə bu gün üç dəfə çox gənc təhsil alır. Təhsil alanlar arasında gənc xanımların sayının artması savadlı anaların, ailələrin olması deməkdir. Təhsil Azərbaycan gənclərinin, xüsusilə qızların növbəti mərhələlərdə özünün və cəmiyyətin inkişafını şəkilləndirən amil olacaq. Beynəlxalq təhsil tədqiqatları da ali təhsil almış valideynlərin övladlarının nəticələrinin daha yüksək olduğunu göstərir. PİSA (Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı) nəticələri də bunu təsdiqləyir. Təhsilli ailələrdə böyüyən uşaqların akademik uğurları daha yüksəkdir. Bu, təhsilin uzunmüddətli təsirini göstərən vacib faktordur. Təhsilə daha çox qız cəlb olunarsa, dünyada təxminən 3 milyona yaxın insan yoxsulluqdan qurtula bilər”.

Sonra BDU və AQUPDK arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanıb.

Sonra Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov Fond tərəfindən qızların təhsilinə dəstək istiqamətində aparılan layihələrdən söz açıb. Bildirib ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə "Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı, “NEQSOL Holding” ilə birgə “Parla” təqaüd və inkişaf proqramı, STP Şirkətlər Qrupu ilə birgə “Zərif mühəndislər” xanımların inkişafı layihəsi və “Women in Tech” təşkilatının Azərbaycan nümayəndəliyi ilə birgə “Maya Hacıyeva adına İKT bacarıqları” təqaüd proqramları həyata keçirilib: “Bu proqramlara 2600-ə yaxın müraciət edilib, ümumilikdə 336 qız təqaüd alıb. Bu cür proqramlar dövlət-özəl tərəfdaşlığı vasitəsilə davam etdiriləcək və qızlarımızın təhsilinə təşviqi işi gücləndiriləcək”.

Milli Məclisin elm və təhsil komitəsinin üzvü Mehriban Vəliyeva, BDU-nun Fizika fakültəsinin Maddə quruluşu kafedrasının müdiri Sacidə Əbdülvahabova, Dövlət Gömrük Akademiyasının İnformasiya texnologiyaları fakültəsinin tələbəsi, “Gənc qızların təhsilinə dəstək” layihəsinin iştirakçısı Fidan Mehdiyeva, şəhid polkovnik-leytenant Anar Əliyevin həyat yoldaşı, “Sən tək deyilsən” layihəsi çərçivəsində “Gələcəyə əmin addımlarla” şəhid xanımlarının təhsilinə dəstək proqramının iştirakçısı Vüsalə Əliyeva çıxışlarında ölkədə qızların təhsil almaları üçün yaradılan yüksək şərait və onlara göstərilən qayğıdan danışıb, bunun cəmiyyətin inkişafı üçün vacib addımlardan olduğunu bildiriblər.

Tədbir bədii proqramla davam edib.

# Beynəlxalq Jurnalistikada Süni İntellektin rolu

***Müasir texnologiyaların sürətlə inkişaf etməsi jurnalistika sahəsində də köklü dəyişikliklərə səbəb olub. Xüsusilə, süni intellektin (SI) beynəlxalq jurnalistikada istifadəsi informasiya istehsalı, yayımı və istehlakı prosesini yeni bir mərhələyə daşıyıb. Media sahəsində texnoloji inqilab jurnalistikanın gələcəyini köklü şəkildə dəyişməkdədir. Süni intellekt, rəqəmsallaşma, böyük data analitikası və digər texnologiyalar jurnalistikanın ənənəvi üsullarını yenidən formalaşdırır.***



Müasir günümüzdə süni intellekt beynəlxalq jurnalistikada bir çox sahədə istifadə olunur. Xəbər agentlikləri avtomatlaşdırılmış sistemlərdən istifadə edərək maliyyə, idman və hava proqnozu kimi sahələrdə qısa zamanda məqalələr hazırlayırlar. Məsələn, Associated Press (AP) və Bloomberg kimi nüfuzlu media qurumları süni intellekt vasitəsilə avtomatik xəbər yazan sistemlərdən istifadə edir.

Bundan başqa, fakt-yoxlama və dezinformasiyanın aşkarlanması süni intellektin vacib funksiyalarından biridir. Müasir media məkanında dezinformasiyanın yayılma sürətinin artması jurnalistikanı ciddi çağırışlarla qarşı-qarşıya qoyub. Google Fact Check Tools və digər fakt-yoxlama alətləri süni intellekt vasitəsilə yanlış informasiyaların mənbəyini araşdırır və oxuculara etibarlı məlumat təqdim etməyə kömək edir.

Süni intellektin beynəlxalq jurnalistikadakı rolu sadəcə kontent istehsalı ilə məhdudlaşmır. O, eyni zamanda media monitorinqini effektiv şəkildə həyata keçirməyə imkan yaradır. Jurnalistlər süni intellekt alətlərindən istifadə edərək ictimai rəyi analiz edir, sosial medianı izləyir və qlobal hadisələrin gedişatını öncədən proqnozlaşdıra bilirlər.

Süni intellekt həm də auditoriyanın maraqlarına görə fərdiləşdirilmiş xəbər yayımına imkan yaradan alqoritmlərlə təchiz olunub. Google News və Apple News kimi platformalar oxucuların xəbər oxuma və axtarış vərdişlərinə əsaslanaraq onlar üçün ən aktual və maraqlı xəbərləri sərgi edir.

Buna baxmayaraq, süni intellektin jurnalistikada istifadəsi bir sıra etik və praktiki problemlər yarada bilir. Onlardan biri obyektivlik məsələsidir. Süni intellekt alqoritmləri insan tərəfindən proqramlaşdırıldığı üçün onlar da qərəzli ola bilər və bəzi informasiyaları şüurlu şəkildə səhv analiz edə bilər. Bu isə informasiya manipulyasiyaları üçün geniş imkanlar yaradır.

Bundan başqa, jurnalistikanın əsas özəlliklərindən biri olan araşdırma və tənqidi düşüncə süni intellekt tərəfindən tam icra edilə bilmir. Süni intellekt məlumatları sıralaya və əmələ gətirə bilsə də, orijinal araşdırmalar aparmaq, jurnalist etikası çərçivəsində obyektiv yanaşma təmin etmək kimi əsas bacarıqlara sahib deyil.

Şübhəsiz ki, bu dəyişikliyə uyğunlaşmaq və jurnalistikanın davamlılığını təmin etmək üçün həm fərdi jurnalistlər, həm də media quruluşları yeni yanaşmaları qəbul etməlidirlər. Bu gün VR (Virtual Reality) və AR (Augmented Reality) texnologiyaları istifadəçilərə hadisələri "yerindəcə" yaşamaq imkanı verir, immersiv jurnalistikanı inkişaf etdirir. İstəsək də, istəməsək də sosial media jurnalistikada həm mənbə, həm də platforma kimi çıxış edir. Əsas xəbər hadisələri tez-tez sosial mediada başlayır. Jurnalistlər mürəkkəb sosial, iqtisadi və siyasi problemləri anlamaq üçün böyük data bazalarını analiz edirlər, məlumatların daha aydın çatdırılması üçün interaktiv qrafiklərdən və vizual elementlərdən yararlanırlar. Təbii ki, bütün bu dəyişikliklərə hazır olmaq çox önəmlidir.

Jurnalistlər süni intellekt alətlərindən, məlumat analitikası proqramlarından və avtomatlaşdırma texnologiyalarından istifadə etməyi öyrənməlidirlər. Media təşkilatları texnoloji startaplarla əməkdaşlıq qurmalı, innovativ alətləri öz iş axınlarına inteqrasiya etməlidirlər. Bir də təbii ki, davamlı təhsil. Jurnalistlər üçün texnoloji yeniliklərə dair davamlı təhsil proqramları təşkil olunmalıdır. Bu proqramlar həm akademik qurumlar, həm də media təşkilatları tərəfindən dəstəklənə bilər. Nəzərə almaq lazımdır ki, mediada texnoloji yeniliklər jurnalistləri monoton işlərdən azad edərək, daha yaradıcı və dərin analitik işlərə fokuslanmağa imkan verəcək. Eyni zamanda, jurnalistikanın həqiqəti axtarmaq və cəmiyyətə təsir göstərmək mahiyyəti dəyişməyəcək. Bu səbəbdən, yeni texnologiyalara uyğunlaşmaqla yanaşı, ənənəvi jurnalistikanın əsas prinsipləri də qorunmalıdır.

Süni intellekt beynəlxalq jurnalistikanı dəyişdirir və daha səmərəli, sürətli xəbər yayımına imkan yaradır. Lakin bu texnologiyanın etik istifadəsi və insan jurnalistlərin rolu mühüm olaraq qalır. Gələcəkdə jurnalistika sahəsində süni intellekt və insan əməyi bir-birini tamamlayan ünsürlər olaraq varlıqlarını qoruyacaqlar. Jurnalistikanın mahiyyəti tənqidi düşüncə və etik prinsiplər üzərində qurulduğu üçün süni intellekt insan jurnalistləri tam əvəz etmək əvəzinə, onların işini asanlaşdıran bir vasitə olaraq qalacaq.

***Vüqar Zifəroğlu,***
*Jurnalistika fakültəsinin dekanı*
*Mətbuat Şurasının sədr müavini*

# BDU-nun əcnəbi tələbəsi: “Komor Adaları İttifaqının Azərbaycandakı ilk səfiri olmaq istəyirəm”

***Oussamaben Mohamed Ali BDU-nun Komor Adaları İttifaqından olan əcnəbi tələbəsidir. Bakalavr təhsilini öz ölkəsində alıb. Səudiyyə Ərəbistanında ərəb dili kurslarında təhsil alarkən “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı barədə məlumat əldə edib. Bundan sonra Azərbaycanda təhsil almağa qərar verib. Oussamaben hazırda BDU-nun hazırlıq qruplarında təhsil alır. Növbəti addım olaraq isə, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində magistr təhsili almaq niyyətindədir.***



***- Oussamaben, necə oldu ki, BDU-da təhsil almaq qərarı verdin?***

- Öz ölkəmdə bakalavr təhsilini tamamladıqdan sonra Səudiyyə Ərəbistanında ərəb dili kurslarında iştirak etdim. Həmin vaxtlarda “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı haqqında məlumat aldım. Azərbaycan universitetləri ilə bağlı araşdırma edərkən BDU-nun reytinq sıralamalarında yüksək yerlərdə olduğunu gördüm. Ona görə də qərara aldım ki, Beynəlxalq münasibətlər və iqtisadiyyat üzrə magistr təhsilimi məhz burada alım. BDU-da təhsil almaq həyatımda yeni bir mərhələdir və bunun böyük imkanlar açacağına inanıram. BDU Azərbaycanın ən qədim və nüfuzlu universitetlərindən biridir. Bu, həm tələbələr, həm də müəllimlər üçün zəngin bir təhsil mühiti yaradır. Bununla yanaşı, Azərbaycan dilini daha yaxşı öyrənməliyəm. Dil baryerini aşmaq üçün çox çalışıram. Gələcəkdə diplomat kimi fəaliyyət göstərmək istəyirəm. Yaxşı ünsiyyət qurmaq bu sahədə müvəffəqiyyətli olmağım üçün çox vacibdir.

***- Ölkəmiz, buradakı mədəni müxtəliflik sənə necə təsir bağışladı?***

- Mədəni müxtəliflik mənim üçün yeni bir təcrübədir. Bu, həm ölkə, həm də insanlar haqqında daha çox şey öyrənməyimə kömək edir. Başlanğıcda yeni bir ölkəyə, fərqli bir mədəniyyətə uyğunlaşmaq zaman aldı. Lakin universitetdə çox ünsiyyətcil, mehriban insanlar tapdım, dostlar qazandım. Bu insanlar mənə Azərbaycana uyğunlaşma prosesində çox kömək etdilər.

***- Sosial həyatın necədir?***

- İlk dəfə Bakıya gəldiyimdə hava çox soyuq idi. Komor adaları tropik iqlimə malik olduğundan soyuq noyabr ayına uyğunlaşmaqda çətinlik çəkdim. Azərbaycan mətbəxi ilə tanışlıq da çox maraqlı oldu. Burada yeməklər mənə çox fərqli gəldi. Amma zamanla iqlimi də, Azərbaycan yeməklərinin zəngin dadlarını da çox bəyəndim. Xüsusilə Azərbaycan milli plovunu çox sevirəm, amma düşünürəm ki, dadı daha acı olsa, mükəmməl olardı. Artıq burada sosial həyatım daha rəngarəngdir. Universitetdəki müxtəlif tədbirlər, müzakirələr çox maraqlı və faydalıdır. Mənim üçün bu, ən böyük üstünlükdür.

***- Hazırlıq qruplarında dərslərin necə gedir?***

- Hazırlıq qrupunda müxtəlif ölkələrdən və mədəniyyətlərdən olan tələbələrlə bir yerdə təhsil alıram. Bu, yalnız akademik bilikləri artırmır, müxtəlif mədəniyyətlərin, düşüncə tərzlərinin və həyat fəlsəfələrinin inteqrasiyasına imkan yaradır. Fərqli mədəniyyətlərdən gələn insanlarla bir arada olmaq sosial bacarıqlarımı inkişaf etdirir, qarşılıqlı anlayışın və hörmətin artırılmasına, yeni dostluqların qurulmasına dəstək olur.

***- Bildiyimə görə, BDU-nun “Tələbə evi”ndə qalırsan. Oradakı şəraitdən razısanmı?***

- “Tələbə evi”nin şəraiti çox əlverişlidir. Təhsil alarkən rahat yaşamaq digər fəaliyyətlərə daha çox fokuslanmağa imkan verir. Mətbəx, kitabxana, asudə vaxt üçün təklif olunan digər şəraitlər tələbələrə müxtəlif imkanlar yaradır. Adətən öz milli yeməklərimizi hazırlayıram. İstədiyimiz zaman dostlarla görüşə, asudə vaxtımızı məhsuldar keçirə bilərik. Burada özümü evdəki kimi rahat və təhlükəsiz hiss edirəm.

***- Gələcək hədəflərin nələrdir?***

- Ölkəm üçün faydalı mütəxəssis olmaq istəyirəm. Hədəfim ölkəmlə Azərbaycan arasında beynəlxalq əlaqələri inkişaf etdirməkdir. Komor Adaları İttifaqının Azərbaycandakı ilk səfiri olmaq istəyirəm.

***Hazırladı:***
*Nərminə Əsədova*

# BDU-da Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib

*Fevralın 24-də BDU və Azərbaycan Gənclər Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə dünya şöhrətli fotojurnalist Reza Deqati də iştirak edib.*






Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrdən biri olduğunu bildirib. O qeyd edib ki, bu soyqırım aktı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri idi. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələrinin 7 min əhalisi olan Xocalı şəhərində törətdiyi soyqırım aktı nəticəsində 613 nəfər öldürülüb, 1000 nəfər dinc sakin aldığı güllə yarasından əlil olub. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb. Onlardan 150-sinin taleyi bu günə qədər hələ də məlum deyil.

Rektor diqqətə çatdırıb ki, bu faciəyə ilk dəfə hüquqi-siyasi qiyməti Ümummilli Lider Heydər Əliyev verib. Ulu Öndər Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirib. Ümummilli Liderin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb. Bu gün artıq dünyanın bir çox ölkələrində erməni millətçilərinin törətdikləri qırğınlar soyqırımı aktı kimi tanınır. Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, onun beynəlxalq aləmdə yayılması, həmçinin bu faciəyə obyektiv qiymət verilməsi istiqamətində Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası bu soyqırımının təkcə xalqımıza qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönələn ən ağır cinayətlərdən biri kimi tanıdılması baxımından mühüm işlər həyata keçirməkdədir. Artıq bu təbliğat kampaniyası Amerikadan Avropaya, Mərkəzi Asiya, Yaxın və Uzaq Şərq ölkələri, Avstraliya, hətta Afrikaya qədər geniş bir coğrafiyanı əhatə edir: "2020-ci il xalqımızın başına gətirilən faciələrin qisasının alındığı il oldu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu 44 gündə parlaq qələbəyə imza atdı, ərazi bütövlüyümüz təmin olundu. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan tamamilə təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində üçrəngli bayrağımızı ucaltdı. Bu gün bütün torpaqlarımız kimi, Xocalıda da həyat yenidən canlanır, yaralarımız sarınır. Soyqırım aktına, düşmən təcavüzünə boyun əyməyən soydaşlarımız yenidən el-obamızı dirçəldir. Gənclərimiz bu faciənin nəticələrini, Xocalının ağrılı tarixini bilməlidir. Bizim vəzifəmiz isə bu həqiqətləri gələcək nəsillərə düzgün şəkildə çatdırmaqdır".

Milli Məclisin deputatı Hikmət Babaoğlu, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktorunun müavini Yusif Vəliyev, BDU-nun Jurnalistika fakültəsinin müəllimi, Azərbaycan Dövlət Televiziyasının şöbə müdiri Mahir Qəribov, "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin sədri Aynurə Ələkbərli çıxışlarında Ermənistanın hərbi-siyasi cinayətləri, tarixən həyata keçirdiyi işğalçılıq siyasəti barədə məlumat verib, Xocalı soyqırımının dəhşətlərinin unudulmaması və gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün təkliflər səsləndiriblər.

Dünya şöhrətli fotojurnalist Reza Deqati Xocalı faciəsi zamanı çəkdiyi fotolardan ibarət "Xocalı soyqırımının ağrılı nəticələri" mövzusunda təqdimat edib və şahidi olduğu hadisələrdən danışıb: "Bu dəhşətli soyqırımı zamanı ciddi informasiya müharibəsi var idi. Erməni lobbisi bütün dünyaya bu faciəni fərqli formada təqdim etmişdi. Mən Xocalıda baş verən dəhşətləri fotolentimin yaddaşına köçürdüm və bütün dünyaya yaydım. Biz bu faciəni unutmamalıyıq. 30 ildən çoxdur ki, bu informasiya müharibəsinin iştirakçısı kimi xocalıların səsini, harayını çatdırıram".

# BDU-da "Xocalı soyqırımı – XX əsrin ən dəhşətli faciəsi" adlı foto və kitab sərgisi



***Fevralın 25-də Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı - XX əsrin ən dəhşətli faciəsi" adlı foto və kitab sərgisi açılıb.***

Sərgidə Xocalı faciəsinin dəhşətlərindən bəhs edən, Ermənistanın hərbi-siyasi cinayətləri, həyata keçirdiyi işğalçılıq siyasətini tarixi faktlarla sübuta yetirən 50-yə yaxın nəşr nümayiş olunur. Sərgidə həmçinin Xocalı ağrısını özündə əks etdirən 30-dək tarixi fotoşəkil də təqdim olunur.

Xocalıda baş verənlərin xatırlanması, yaddaşların təzələnməsi məqsədi daşıyan sərgi həftənin sonunadək ziyarətçilərin üzünə açıq olacaq.

# BDU-da tədbir: "Xocalı - qan yaddaşımız"

***Fevralın 26-da Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşəbbüsü ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş "Xocalı - qan yaddaşımız" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərin tarixi, Xocalı soyqırımının başvermə səbəbləri və onun doğurduğu ağır nəticələr, bu qanlı aksiyaya hüquqi-siyasi qiymətin verilməsi və onun dünya ictimaiyyətinə layiqincə çatdırılması istiqamətində görülən mühüm işlərdən söz açıb. Qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının qazandığı parlaq qələbə ilə şəhidlərimizin qanlarının yerdə qalmayıb. 2023-cü ilin sentyabr ayında birgünlük lokal antiterror əməliyyatında Azərbaycan Ordusu tarixi torpaqlarımızı, o cümlədən Xocalı rayonunu işğaldan azad edib, Hazırda Xocalıda həyata keçirilən mühüm quruculuq işləri, o cümlədən "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2025-ci il tarixli Sərəncamı tarixi Zəfər nəticəsində əldə olunan qələbənin böyük təntənəsidir.

"Azərbaycan ədəbiyyatında Xocalı mövzusu" adlı məruzə ilə çıxış edən BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu müstəqillik dövrü ədəbi düşüncəsində Qarabağ, o cümlədən Xocalı mövzusunun bədii inikasından, bu istiqamətdə yazılmış mühüm əsərlərdən söz açıb. Bildirib ki, Xocalı faciəsi və Qarabağ müharibəsi mövzusunda yazılmış ən gözəl əsərləri fərqləndirən başlıca cəhəti insanın taleyinə həssaslığın, torpağa və yurda olan sevginin ifadəsində daha aydın görmək olar. Esmira Məhiqızı, Aqil Abbas, Zemfira Məhərrəmli və başqa ədiblərin yaradıcılığından söz açan məruzəçi qeyd edib ki, Xocalı faciəsinin bədii ədəbiyyatda işıqlandırılmasının son dərəcə ehtiyat tələb edən cəhətlərindən biri də bu mövzunun məktəblilərə, gənc nəslə düzgün təqdim edilməsidir: "44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan gəncliyi Qarabağı nifrət və kin gücünə deyil, öz yurdumuza, dəyərlərimizə məhəbbət gücünə xilas edib. Bu, həm də gəncliyimizin yiyələndiyi müasir elmin, intellektin, dünyanı heyrətə gətirən texnologiyanın və hərb peşəkarlığının qələbəsidir".

Tədbir tələbələrin çıxışları ilə davam edib.

# BDU-da Xocalı soyqırımının qurbanları bir dəqiqəlik sükutla yad edilib




***Fevralın 26-da saat 17:00-da Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar bütün ölkə ərazisində olduğu kimi, BDU-da da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamına əsasən, Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.

# BDU-da Əməkdar jurnalist Səadət Məmmədovanın "Qaraqaya döyüşü" filmi nümayiş olunub

***Fevralın 26-da BDU-da Əməkdar jurnalist, ATV prezidentinin informasiya yayımı üzrə müşaviri, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədovanın Xocalı soyqırımından bəhs edən "Qaraqaya döyüşü" filmi nümayiş olunub. Film tanınmış jurnalistin müəllifi olduğu və ATV kanalında yayımlanan "Ağdam və mən" sənədli-publisistik filmlər silsiləsinə daxil olan 50-dən artıq filmdən biridir.***



BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev başəriyyətin ən qanlı səhifəsi - Xocalı soyqırımının 33-cü ildönümü münasibətilə Univetsitetdə silsilə tədbirlərin keçirildiyini bildirib. Qeyd edib ki, tələbə-gənclər Azərbaycan xalqının başına gətirilən faciələri və tarixi qələbəmizi şərtləndirən amilləri bilməlidirlər. "Qaraqaya döyüşü" filmi də qanlı tariximizin unudulmaması baxımından çox əhəmiyyətlidir.

Əməkdar jurnalist Səadət Məmmədova filmin Xocalı soyqırımı qurbanlarının erməni terrorundan, qanlı qırğından qaçıb Ağdama doğru üz tutduqları istiqamətdə yerləşən Qaraqayadan və məhz bu ərazidə Xocalı sakinlərini xilas etmək üçün aparılan döyüşdən bəhs etdiyini diqqətə çatdırıb. O qeyd edib ki, vizual məlumatları daha yaxşı mənimsəyən gənc nəsil üçün bu cür filmlər önəmli tarixi tədqiqat mənbəyi rolunu oynayır.

Daha sonra filmə baxış keçirilib.

# Jurnalistika fakültəsinin tələbəsi "Xocalı həqiqətləri rəqəmsal sənətdə" adlı fotomüsabiqənin qalibi olub

***Fevralın 27-də Gənclər Fondunun dəstəyi və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) təşkilatçılığı ilə Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar keçirilən "Xocalı həqiqətləri rəqəmsal sənətdə" mövzusunda fotomüsabiqə başa çatıb.***

Müsabiqənin məqsədi Xocalı faciəsinin dərin emosional təsirini sənət vasitəsilə ifadə etmək, tarixi həqiqətləri innovativ yolla yeni nəsillərə ötürmək və vizual sənətin gücü ilə beynəlxalq ictimaiyyətə çatdırmaqdır.

Münsiflər heyətinin qərarına əsasən, Jurnalistika fakültəsinin III kurs tələbəsi Nahid Xəlilovun işi müsabiqədə I yerə layiq görülüb.



# BDU kollektivi "Ana harayı" abidəsini ziyarət edib



***Fevralın 26-da Bakı Dövlət Universitetinin kollektivi və tələbələri Xocalı soyqırımının 33-cü ildönümü münasibətilə "Ana harayı" abidəsini ziyarət edib.***

Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış abidənin önünə qərənfillər düzülüb, faciə qurbanları dərin ehtiramla yad olunub.

# "Xocalı BDU-nun Jurnalistika fakültəsinin müəllimlərinin gözü ilə"

***Fevralın 26-da Jurnalistika fakültəsində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş "Xocalı Jurnalistika fakültəsinin müəllimlərinin gözü ilə" adlı tədbir keçirilib.***

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verən soyqırım aktı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş bəşəri cinayətdir. Bu faciəni bütün dünyaya çatdırmaq üçün tələbə jurnalistlərin üzərinə xüsusi məsuliyyət düşür. Şəffaflığı, operativliyi və obyektivliyi əsas meyar kimi götürən gənc jurnalistlərin vətəndaşlıq borcu tarixi həqiqətlərimizi və xalqımızın başına gətirilən müsibətləri unutmamaq və unutdurmamaqdır.

BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli Xocalıdakı hadisələrin baş verdiyi mürəkkəb dövr, faciədən əvvəl və sonra yaşananlar barədə ətraflı məlumat verib. O, 1991-ci ilin dekabr, 1992-ci ilin yanvar aylarında Azərbaycan Dövlət Televiziyasının (AZTV) əməkdaşı kimi Xocalıda ezamiyyətdə olarkən şahidi olduğu ağır blokada vəziyyəti, Xocalının müdafiəsiz qalması, şəhərdə yaşanan acınacaqlı durum və insanların pərişan vəziyyəti barədə təəssüratlarını tələbələrlə bölüşüb.

Bildirib ki, həmin çətin dövrlərin qisasını aldığımız 44 günlük Vətən müharibəsi bütün dünyaya tarixi həqiqətimizi silinməyəcək şəkildə həkk etdirdi və bir dərs verdi: "Qisas dərsi".

Sonra tələbələrin sualları cavablandırılıb.

# Səttar Bəhlulzadə adına xarici dillər təmayüllü gimnaziyanın şagirdləri BDU-da

***Fevralın 11-də Səttar Bəhlulzadə adına xarici dillər təmayüllü gimnaziyanın X-XI sinif şagirdləri BDU-nu ziyarət ediblər.*** Ziyarət çərçivəsində şagirdlər Universitetin müxtəlif bölmələri ilə tanış olublar. Onlar Heydər Əliyev Muzeyi, Heydər Əliyev lektoriyası, Elmi Kitabxana, "Təkamül təlimi" muzeyi, "Eko Məkan", İdman kompleksi və laboratoriyaların fəaliyyətini yaxından izləyiblər.



Ziyarət zamanı şagirdlərə BDU-nun yaranma tarixi, elmi və tədris fəaliyyəti, beynəlxalq uğurları, ixtisasları, tanınmış məzunları haqqında ətraflı məlumat verilib. Onlar Universitetin laboratoriyalarında aparılan tədqiqat işləri, muzeylərdəki kolleksiyalar və tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün fəaliyyət göstərən müxtəlif klub və dərnəklərlə də tanış olublar.

Bu cür ekskursiyalar şagirdlərin ixtisas seçimi barədə daha məqsədyönlü qərarlar vermələrinə kömək edir.

# Yaponiyanın Tsukuba Universitetinin professorları BDU-da olublar

***Fevralın 19-da Yaponiyanın Tsukuba Universitetinin professorları Hayate Sotome, Yuji Kajima və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Terasava Mitsiko Şərqşünaslıq fakültəsində olublar.***

Qonaqlarla görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov iki ali təhsil müəssisəsi arasında imzalanmış əməkdaşlıq memorandumunun əhəmiyyətindən danışıb. O, bu əməkdaşlığın birgə tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsi, habelə ortaq akademik proqramların yaradılması sahələrində mühüm irəliləyişlərə yol açacağını qeyd edib.

Görüşdə Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan fakültədə yapon dilinin öyrənilməsinin mövcud vəziyyəti və perspektivləri haqqında məlumat verib. O, iki universitet arasında əməkdaşlığın bu sahənin inkişafına müsbət təsir göstərəcəyini vurğulayıb.

Müzakirələr zamanı gələcək əməkdaşlıq sahələri və planları barədə də fikir mübadiləsi aparılıb. Daha sonra qonaqlar BDU tələbələrinə Yaponiyada təhsil almaq imkanlarına dair infosessiya keçiriblər.

# BDU-nun kafedra müdiri Vyanada beynəlxalq konfransda vergi hüququna dair çıxış edib

***Fevralın 24-də Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent Əsmər Əliyeva Avstriyanın paytaxtı Vyanada keçirilən "Dünya ölkələri üzrə transfer qiymətləndirilməsinin inkişafı" adlı beynəlxalq konfransda iştirak edib.***

Konfrans Vyana İqtisadiyyat və Biznes Universitetinin nəzdindəki Beynəlxalq Vergi Hüququ İnstitutu tərəfindən təşkil edilib.

Tədbirə dünyanın 45 ölkəsindən 200-ə yaxın nümayəndə qatılıb. Onlar arasında nüfuzlu universitetlərin vergi hüququ üzrə alimləri, tədqiqatçı-professorları, müxtəlif dövlətlərin vergi administrasiyalarının rəhbərləri, BMT-nin və Avropa İttifaqının vergi məsələləri üzrə məsul nümayəndələri, həmçinin transmilli korporasiyaların təmsilçiləri yer alıb.

Konfransda transfer qiymətləndirilməsi sahəsində dünyanın qabaqcıl ölkələrinin və beynəlxalq təşkilatların hesabatları təqdim edilib. Milli qanunvericiliklərdəki boşluqlar, ziddiyyət və yeniliklər müzakirə olunub. Konfransın digər vacib mövzusu isə milli məhkəmələrdə transfer qiymətinin tətbiqi zamanı yaranan problemlərin həlli yolları olub.

Dosent Əsmər Əliyeva konfransda məruzə ilə çıxış edib və təkliflər irəli sürüb. O, həmçinin konfrans iştirakçılarına Hüquq fakültəsinin "Vergi hüququ" magistr ixtisaslaşması barədə məlumat verib. Əsmər Əliyeva BDU magistrantlarının qısamüddətli tələbə mübadiləsi proqramları ilə Vyana İqtisadiyyat və Biznes Universitetində təhsil almalarının faydalarından, eləcə də universitetin müəllim heyətinin Sinqapur Vergi Akademiyasında təlimlərə cəlb edilməsinin vacibliyindən danışıb. Həmçinin, xarici universitetlərin vergi hüququ professorlarının fakültədə qonaq mühazirəçi qismində dəvət edilməsinin əhəmiyyətini vurğulayıb.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin və "Bakcell"in təşkilatçılığı ilə infosessiya

***Fevralın 28-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin və "Bakcell" şirkətinin birgə təşkilatçılığı ilə tələbələr üçün infosessiya təşkil edilib.***

İnfosessiyanın keçirilməsində məqsəd tələbələri şirkətin təcrübə proqramı haqqında məlumatlandırmaq, onları bu prosesdə aktiv iştiraka təşviq etmək, gənc mütəxəssislərin karyera inkişafına dəstək olmaqdır.

"Bakcell"in Satış departamentinin rəhbəri Anar Verdiyev bildirib ki, Təhsilin İnkişaf Fondu ilə "Bakcell" arasında bağlanmış əməkdaşlıq müqaviləsinə əsasən, tələbələrə 5GB həcmində internet paketinin verilməsi, həmçinin universitetlərdə təcrübə proqramları haqqında təbliğat fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulub. Tələbələrə təcrübə proqramının şərtləri, müraciət qaydaları və seçim meyarları haqqında geniş təqdimat edilib. Həmçinin bu proqramın onların peşəkar bacarıqlarının inkişafında oynadığı rol, praktiki biliklər qazanmaq imkanları və gələcək karyera perspektivləri barədə ətraflı izah verilib.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU əməkdaşları Hirkan Milli Parkının yaradılmasının 21 illiyinə həsr olunan tədbirdə

***Fevralın 11-də Biologiya fakültəsinin professoru Mirmusa Cəfərov, dekan müavini Yusif Abiyev, biologiya üzrə fəlsəfə doktorları Vazeh Baxşıyev, Sevinc Məmmədova və Tahir Yunuslu Lənkəranda Hirkan Milli Parkının yaradılmasının 21 illiyi münasibətilə keçirilən dəyirmi masada iştirak ediblər.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin təşkil etdiyi tədbirə BDU, Lənkəran Dövlət Universiteti, Zoologiya, Botanika institutlarının alimləri, Lənkəran Regional Turizm İdarəsinin, Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) və Milli Parkın fəaliyyətinə töhfə vermiş tərəfdaş təşkilatların nümayəndələri qatılıblar.

Tədbir çərçivəsində Azərbaycanın cənub-şərq hissəsində yerləşən və zəngin bioloji müxtəlifliyi, nadir flora və fauna növləri ilə seçilən Hirkan Milli Parkının əhəmiyyəti vurğulanıb. Mütəxəssislər parkın nadir ekosistemlərini qorumaq, elmi tədqiqatları genişləndirmək və ekoturizmin inkişafına töhfə vermək üçün birgə əməkdaşlığın vacibliyini qeyd ediblər. Müzakirələr zamanı Xəzər dənizinin cənub-qərb və cənub sahillərini əhatə edən, dünya miqyasında nadir meşə massivlərindən biri olan Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Sonda iştirakçılar Hirkan Milli Parkının gələcək inkişafı və təbiətin mühafizəsi sahəsində daha geniş elmi və ekoloji layihələrin həyata keçirilməsi üçün birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

# Astrofizika kafedrası: "Fevralın 28-də ilin ikinci "planetlərin böyük paradı" müşahidə olunacaq"

***Fevralın 28-də ilin ikinci "planetlərin böyük paradı" müşahidə olunacaq.***

Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, axşamdan Günəş batan kimi 7 planet - Merkuri, Venera, Mars, Yupiter, Saturn, Uran və Neptun Yerdən eyni vaxtda görünəcək. Səmada görünmə ardıcıllığı qərbdən şərqə doğru belə olacaq: Saturn, Merkuri, Neptun, Venera, Uran, Yupiter və Mars. Uran və Neptunu müşahidə etmək üçün durbin və ya teleskop tələb olunur, çünki bu planetlər adi gözlə görünməyəcək. Digər planetləri (Merkuri, Venera, Mars, Yupiter və Saturn) adi gözlə asanlıqla müşahidə etmək mümkündür.

Günəş batdıqdan dərhal sonra müşahidəyə başlamaq məsləhətdir, çünki bəzi planetlər qərb tərəfdə üfüqə yaxın olduqları üçün tez batırlar. Şəhər işıqlarından uzaq, açıq və təmiz bir səma altında planetləri müşahidə etmək daha yaxşı nəticə verəcək.

"Planetlərin böyük paradı" nadir astronomik hadisədir və hər 20 ildən bir baş verir. Bu cür hadisələr astronomiyaya olan marağı artırır və gecə səmasını daha da gözəlləşdirir. "Planetlərin paradı" tamamilə vizual hadisədir və Yerin təbiətinə, canlılara heç bir mənfi təsir göstərmir. Xatırladaq ki, ilin birinci "planetlərin böyük paradı" yanvarın 21-də müşahidə olunmuşdu.

# BDU əməkdaşları və tələbələri Ağgöl Milli Parkında elmi-məlumatlandırıcı tədbirdə

*Fevralın 3-də Ekologiya və torpaqşünaslıq, Biologiya fakültələrinin tələbə və müəllim heyəti 2 fevral - Ümumdünya Su-Bataqlıq Əraziləri Günü ilə əlaqədar Ağgöl Milli Parkında elmi-məlumatlandırıcı tədbirdə iştirak ediblər.*



Səfər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji Müxtəlifliyin Qorunması Xidməti ilə BDU arasında əməkdaşlıq memorandumu çərçivəsində reallaşıb. Tədbirə ETSN əməkdaşları, Ağcabədi Rayon İcra Hakimiyyətinin rəsmiləri, Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Təşkilatının (WWF) nümayəndələri qatılıb.

Tədbirdə su-bataqlıq ərazilərinin ekoloji əhəmiyyəti və mühafizəsi mövzusunda geniş müzakirələr aparılıb, nadir və nəsli kəsilmək təhlükəsində olan quş növlərinin vəziyyəti, onların müşahidəsi və biomüxtəlifliyin qorunmasının vacibliyi barədə iştirakçılara məlumat verilib.

Tədbirin praktiki hissəsində iştirakçılar Ağgöl Milli Parkındakı "Böyük Ağgöl" marşrutu boyunca ekosistemlə yaxından tanış olub, su-bataqlıq quşlarını müşahidə ediblər.

Qeyd edək ki, su-bataqlıq quşlarının yaşama yeri kimi beynəlxalq əhəmiyyət daşıyan su-bataqlıq əraziləri barədə Konvensiya 1971-ci il fevralın 2-də İranın Ramsar şəhərində imzalanıb. Azərbaycanın Ağgöl və Qızılağac (Böyük və Kiçik Qızılağac körfəzləri) Milli Parkları mühüm su-bataqlıq əraziləri kimi Konvensiyanın "Ramsar Siyahısı"na daxil edilib.

# BDU əməkdaşının meşələrdə biokütlə və karbontutma potensialının hesablaması üzrə tədqiqatlarından tədris prosesində istifadə oluna bilər

*Fevralın 6-da Biologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Yusif Abiyev və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Türkiyə, Asiya və Qafqaz üzrə Regional Nümayəndəliyinin meşəçilik üzrə eksperti Cuma Uykunun həmmüəllifiyi ilə "Azərbaycan meşələrində biokütlə və karbontutma potensialının hesablaması metodologiyası" adlı kitabça nəşr olunub.*

Kitabça Regional İnkişaf İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "COP29-la bağlı beynəlxalq təşəbbüslər" qrant müsabiqəsinin "Tuqay meşələrinin karbontutma potensialının qiymətləndirilməsi, meşə ekosisteminin bərpası" layihəsi çərçivəsində hazırlanıb.

Tədqiqatların aparılması və kitabçanın hazırlanmasında BDU-nun Biologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin üzvləri Nəzirə Abbasova, Fariz Həsənalıyev, Aydan Vəliyeva fəal iştirak ediblər.

Kitabça Tuqay meşələrinin biomüxtəliflik və ekosistem xidmətləri baxımından əhəmiyyətini ön plana çəkərək, onların karbon saxlama potensialını qiymətləndirən sistemli metodologiyanı təqdim edir. Kitabçada meşə biokütləsinin və karbon ehtiyatlarının hesablanması üçün beynəlxalq standartlara uyğun yanaşmalar, o cümlədən yerüstü və yeraltı biokütlə, ölü odun və torpaq üzvi karbonunun qiymətləndirilməsi, allometrik tənliklərin yaradılması metodikası izah olunub. Kitabçadan ətraf mühit, meşəçilik, biologiya üzrə çalışan mütəxəssislər, həmçinin tədqiqat aparan magistrant və doktorantlar istifadə edə bilərlər.

Layihə çərçivəsində Kür çayı boyunca yayılmış Tuqay meşələri, xüsusilə Qarayazı Dövlət Təbiət Qoruğunun karbontutma potensialı öyrənilib, kitabçada öz əksini tapıb. Samur-Yalama Milli Parkının meşələrində aparılan karbon ehtiyatlarının qiymətləndirilməsi nəticəsində ilk dəfə olaraq düzən meşələrinin karbontutma potensialı üçün "Azərkosmos"un peyk görüntülərini analiz etməyə imkan verən spesifik allometrik tənlik təklif edilib.

Qeyd edək ki, layihə çərçivəsində ötən ilin noyabr ayında BDU-da müvafiq təşkilatların mütəxəssisləri, müəllimləri və tələbələri üçün metodologiya üzrə xüsusi təlimlər keçirilib.

# BDU ilə İtaliyanın G. N. Annunzio adına Çieti-Peskara Universiteti arasında əməkdaşlıq müzakirə edilib

*Fevralın 6-da İtaliyanın G. N. Annunzio adına Çieti-Peskara Universitetinin nümayəndə BDU-da olub. Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Əsgər Zeynalabdinov, Yeganə Əliyeva və Xarici tələbələrlə iş şöbəsinin əməkdaşı Sevinc Məmmədova iştirak ediblər.*

Görüşdə çıxış edən BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov universitetin fakültələri və əsas fəaliyyət istiqamətləri haqqında məlumat verərək, İtaliya universitetləri ilə elmi-pedaqoji əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. O qeyd edib ki, BDU xarici universitetlərlə elmi-pedaqoji əlaqələrin qurulmasına, ikili diplom proqramlarının tətbiqi ilə kadr hazırlığına xüsusi önəm verir. Bu baxımdan Çieti-Peskara Universiteti ilə müvafiq sahələr üzrə əməkdaşlıq perspektivləri müsbət nəticələr verə bilər.

Sonra nümayəndə heyətinin başçısı, Çieti-Peskara Universitetinin beynəlxalq əlaqələr və "Erasmus" üzrə baş mütəxəssisi, Beynəlxalq Hərəkətlilik Ofisinin rəhbəri Conte Glauco Antonio, Psixobiologiya və fizioloji psixologiya kafedrasının dosenti Marcello Costantini və Dil Mərkəzinin direktoru Tania Zulli universitetləri haqqında məlumat veriblər. Çieti-Peskara Universitetinin 3 məktəbi və 15 fakültəsi ilə BDU-nun fakültələri arasında əməkdaşlıq istiqamətləri müzakirə olunub və birgə əməkdaşlığa dair təkliflər irəli sürülüb.

# V Azərbaycan Astronomiya Olimpiadasının Respublika seçim turunun nəticələri açıqlanıb

*Fevralın 1-də ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında V Azərbaycan Astronomiya Olimpiadasının Respublika turu keçirilib. Onlayn şəkildə keçirilən olimpiadada iştirak etmək üçün 1200 nəfərə yaxın şagird qeydiyyatdan keçib.*

Təşkilat komitəsinin qərarına əsasən, toplam 100 baldan 75 bal və yuxarısını toplayan iştirakçılar olimpiadanın final mərhələsinə vəsiqə qazanıb. Bakı Dövlət Universitetində keçiriləcək olimpiadanın finalında iştirak haqqı qazanan şagirdlərə yaxın günlərdə daha ətraflı məlumat veriləcək.

Qeyd edək ki, V Azərbaycan Astronomiya Olimpiadasının final mərhələsinin qalibləri Hindistanda keçiriləcək XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaqlar. Hazırlıq dərsləri Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin ekspertləri tərəfindən mərkəzdə təşkil olunacaq. Bundan əlavə, "Həvəskar Astronomiya Cəmiyyəti" İctimai Birliyi məktəblilərə teleskoplardan istifadə qaydaları ilə bağlı təlimlər təşkil edəcək.

V Azərbaycan Astronomiya Olimpiadası və XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərsləri Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə həyata keçirilir. Onu da əlavə edək ki, Azərbaycan komandası Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında Azərbaycan Respublikası Təhsil İnstitutunun dəstəyi ilə iştirak edir.

# BDU-nun tələbə və məzunlarının "Bakcell"də təcrübə proqramlarına cəlb edilməsi müzakirə olunub



*Fevralın 7-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə "Bakcell"in nümayəndəsi arasında görüş keçirilib.*

Görüşün keçirilməsində məqsəd BDU-nun tələbə və məzunlarının təcrübə proqramlarına cəlb edilməsi, onların texnologiya və telekommunikasiya sahəsində məşğulluq səviyyəsinin artırılması istiqamətində fəaliyyətin təşkili olub.

Bildirilib ki, Təhsilin İnkişaf Fondu ilə "Bakcell" arasında bağlanmış əməkdaşlıq müqaviləsinə əsasən, tələbələrə 5GB həcmində internet paketinin verilməsi, həmçinin universitetlərdə təcrübə proqramları haqqında təbliğat fəaliyyətinin genişləndirilməsi, uğurlu nəticə göstərən tələbələrin işlə təmin edilməsinə dəstək göstərilməsi nəzərdə tutulub.

# BDU əməkdaşı “Telekommunikasiya sektorunda kibertəhlükəsizlik" mövzusunda tədbirdə iştirak edib



***Fevralın 7-də BDU-nun İnformasiya Texnologiyaları Mərkəzinin Texniki proqram təminatı şöbəsinin mütəxəssisi Əfsanə Mustafazadə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə keçirilən “Telekommunikasiya sektorunda kibertəhlükəsizlik" mövzusunda dəyirmi masada iştirak edib.***

Tədbirin əsas məqsədi kritik informasiya infrastrukturu sayılan telekommunikasiya sahəsində kibertəhlükəsizliyin təmin edilməsi məsələlərinin müzakirəsi, mövcud imkanlar və çağırışların dəyərləndirilməsi, habelə yeni təhdidlərə qarşı mübarizə üsullarının araşdırılması olub.

Görüşdə Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura, eləcə də telekommunikasiya operatorları və AKTA üzvü olan şirkətlərin nümayəndələri iştirak ediblər.

Dəyirmi masa çərçivəsində telekommunikasiya sektorunda kibertəhlükəsizliyin təmin olunması üçün görülən tədbirlər, normativ tənzimləmə mexanizmləri, hibrid təhdidlərə və dezinformasiyaya qarşı mübarizə, kiberinsidentlərin idarə edilməsi, insan resurslarının gücləndirilməsi və məlumat mübadiləsinin effektiv təşkili kimi vacib məsələlər müzakirə edilib. BDU əməkdaşı kibertəhlükəsizlik sahəsində insan kapitalının inkişaf etdirilməsi və akademik sektorun bu istiqamətdə oynaya biləcəyi rol barədə fikirlərini bölüşüb.

Görüşdə Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzi tərəfindən yaradılmış kibertəhdid məlumat mübadiləsi platforması təqdim edilib və onun imkanları barədə ətraflı məlumat verilib.

# BDU-dan növbəti kitab bağışlama aksiyası



***Fevralın 14-də BDU-nun Elmi Kitabxanası 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasının Kitabxanasına və Mingəçevir Dövlət Universitetinin (MDU) kitabxanasına kitablar hədiyyə edib.***

Ali təhsil müəssisələrinin kitabxanalarının sorğusuna əsasən, onların profilinə uyğun, tələbə, professor və müəllim heyəti tərəfindən daha çox ehtiyac duyulan ümumilikdə 404 adda, 622 nüsxə elmi, bədii və tədris ədəbiyyatı Mübadilə-ehtiyat fondundan seçilərək təhvil verilib. Hədiyyə olunmuş kitablar arasında müxtəlif elm sahələrinə dair BDU alimlərinin müəllifi olduqları və BDU-nun “Nəşr Evi”ndə çap olunan fundamental dərslik və dərs vəsaitləri, o cümlədən son illərin nəşri olan 2 cildlik “Azərbaycan tarixi”, “Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət” kitabları və “Heydər Əliyev - 100” bibiloqrafik məlumat kitabı xüsusi yer tutur.

Kitabxana işi, informasiya təhlükəsizliyi, kimya mühəndisliyi, biotexnologiyaya dair dərsliklər, iqtisadiyyat, makro və mikroiqtisadiyyata aid ingilis dilindən Azərbaycan dilinə tərcümə olunmuş beynəlxalq miqyaslı akademik nəşrlər hər iki ali təhsil müəssisəsinin tədris prosesinə əsaslı informasiya dəstəyi göstərəcək.

# Son iki ildə Kimya fakültəsinə maksimal qəbul balı artıb

***Son iki ildə Kimya fakültəsinə maksimal qəbul balı artıb. Belə ki, 2024/2025-ci tədris ilində Kimya fakültəsinin “Kimya mühəndisliyi” ixtisasında maksimum bal 654,3, “Kimya müəllimliyi” ixtisasında isə 579,9 bal olub. Ötən dərs ilində bu rəqəmlər 584,6 və 572,1 bal təşkil edib.***

2024/2025-ci tədris ilində Kimya fakültəsinə qəbul olan 88 nəfər 500-dən çox bal toplayıb.

Fakültənin alimləri tərəfindən 2024-cü ildə üç dərs vəsaiti və bir monoqrafiya işıq üzü görüb. Həmçinin, 223 məqalə (bunlardan 124-ü indeksləmniş jurnallarda), 384 tezis və 205 beynəlxalq konfrans materialı dərc edilib. Fakültə alimləri elmi nəticələrinə görə 1 patent alıb. Fakültənin 10 əməkdaşının Hirş indeksi 10-dan yuxarıdır.

Ötən il Kimya fakültəsinin alimləri İbrahim Məmmədov, Farid Nağıyev və Xəmməd Əsədov tərəfindən Türkiyə Elm və Texnika Komitəsinin (TÜBİTAK) qrantı çərçivəsində "Çoxəvəzli heterotsiklik karkasların qurulmasında üzvi kataliz" (“Organocatalysis Towards the Construction of Highly Substituted Heterocyclic Frameworks") adlı yeni bir tədqiqat layihəsi başlanıb.

Fakültənin 2 əməkdaşı ötən il Azərbaycan Elm Fondunun qrant müsabiqəsinin qalibi olub. Bunlar “Sənaye kimyası” elmi-tədqiqat laboratoriyasının (ETL) müdiri Ələkbər Hüseynzadənin "Monokristalların rentgen difraksiya metodu ilə tədqiqi", ETL-in kiçik elmi işçisi Əlibala Əliyevin "Süni ürək qapağı təbəqələrinin dizaynı üçün yeni kompozit materialın sintezi" adlı qrant layihələridir.

Fakültənin elmi fəaliyyətində seminar və konfranslar da mühüm yer tutur. Ötən il fakültədə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Kimya və kimya texnologiyası” adlı Respublika elmi konfransı keçirilib. Bununla yanaşı, 29 elmi seminar təşkil olunub. İl ərzində elmi tədqiqat işlərinə 37 tələbə cəlb edilib.

# Ötən il Tarix fakültəsinin ixtisaslarına keçid balları artıb

***Fevralın 14-də 2024/2025-ci tədris ilində Tarix fakültəsində bakalavriat səviyyəsinə 486 tələbə qəbul edilib, qəbul planı 93% dolub. Qəbul olunan tələbələrdən 4-ü 600-dən yüksək bal toplayıb. Bu tələbələr “Tarix” və “Tarix müəllimliyi” ixtisaslarına qəbul olunublar. Son üç ildə “Tarix”, “Tarix müəllimliyi”, “Regionşünaslıq” ixtisaslarında keçid ballarında artım müşahidə edilib.***

Fakültədə 18 professor, 50 dosent, 39 müəllim və baş müəllim olmaqla ümumilikdə 142 əməkdaş fəaliyyət göstərir. Onlardan 21-i tarix üzrə elmlər doktoru, 77-si isə tarix üzrə fəlsəfə doktorudur.

2024-cü ildə fakültə tərəfindən 16 dərslik, 24 proqram, 11 monoqrafiya nəşr olunub, 200 elmi məqalə (156-sı respublika daxilində, 44-ü isə xarici jurnallarda, o cümlədən 6-sı “Web of Science” və “Scopus” bazasında) çap edilib. Tarix fakültəsi ötən il 5 elmi konfrans təşkil edib, onlardan 2-si beynəlxalq, 3-ü isə respublika səviyyəli olub.

# BDU tələbələri Türkiyədə təqaüd proqramları ilə bağlı məlumatlandırılıb

***Fevralın 18-də BDU-da Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin (YTB) nümayəndələri ilə görüş keçirilib. Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, YTB-nin koordinatoru Kemal Kaya və mütəxəssisi Seliha Dursun iştirak ediblər.***

Görüşdə bildirilib ki, 2012-ci ildən bəri YTB-nin koordinasiyası ilə müvafiq qurum və təşkilatlarla əməkdaşlıq şəraitində dünyanın müxtəlif ölkələrindən Türkiyəyə təhsil almaq məqsədilə gələn beynəlxalq tələbələrə müxtəlif təqaüd proqramları təqdim edilir. Bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə uzun və qısamüddətli proqramlar çərçivəsində hər il 175-dən çox ölkədən təxminən 165 min müraciət alınır və 5 min yeni beynəlxalq tələbəyə təqaüd verilir.

1992-ci ildən bəri proqramın 3000 azərbaycanlı məzunu olub, ümumilikdə isə 5700 azərbaycanlı tələbəyə təqaüd verilib. Hazırda 700 azərbaycanlı tələbə sözügedən təqaüd proqramı ilə Türkiyədə təhsil alır. Təqaüdün məbləğinə proqrama seçilən tələbənin Universitetə və yataqxanaya yerləşdirilməsi, gediş-dönüş bileti, aylıq təqaüdü, sağlıq sığortası, təhsil xərcləri, 1 illik türk dili öyrənməyi və sosial fəaliyyətlərlə məşğul olma imkanı daxildir.

Daha sonra tələbələrlə görüş keçirilib, tələbələrə təqaüd proqramları barədə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

# BDU-nun jurnalı EBSCO beynəlxalq məlumat bazasına daxil edilib

***Fevralın 18-də Bakı Dövlət Universitetinin təsis etdiyi “Acta Botanica Caucasica” jurnalı Elmi Kitabxananın təşəbbüsü və koordinasiyası ilə EBSCO beynəlxalq elmi məlumat bazasına daxil edilib. EBSCO dünyanın ən böyük akademik resurs təminatçılarından, elmi mənbələrin beynəlxalq səviyyədə yayılmasını və tədqiqatçılar üçün əlçatanlığını təmin edən əsas platformalardan biridir.***

Jurnalın AGRIS, “Google Scholar”, “ResearchGate” kimi nüfuzlu elmi məlumat bazaları ilə yanaşı, EBSCO bazasına da daxil edilməsi onun elmi nüfuzunu daha da artırır, dərc olunan məqalələrin qlobal elmi auditoriyaya əlçatanlığını təmin etməklə istinad göstəricilərinin yüksəlməsinə, maksimum geniş istifadə edilməsinə şərait yaradır.

“Acta Botanica Caucasica” jurnalı həmçinin “Index Copernicus International” (ICI Journals Master List) bazasında indekslənmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının biologiya və aqrar elmlər sahəsi üzrə tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilib. Jurnalda dərc edilən bütün məqalələr “Digital Object Identifier” (DOI) sistemi vasitəsilə unikal rəqəmsal identifikatorla təmin olunur ki, bu da onların elmi dövriyyədə izlənməsi və istinad edilə bilməsini asanlaşdırır.

# Gənc alim: BDU-da başladığım tədqiqatları İtaliyanın Milli Nüvə Fizikası İnstitutunda davam etdirdim - MÜSAHİBƏ

*"İlin gənc alimi" müsabiqəsi 2020-ci ildən etibarən Bakı Dövlət Universitetində hər il keçirilir və 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunur. Bu müsabiqə iki istiqamət üzrə nominasiya elan edir. Birinci istiqamət təbiət, dəqiq və texnika elmləri, ikinci istiqamət humanitar və ictimai elmləri əhatə edir. Mən müsabiqədə dəqiq elmlər üzrə iştirak etdim. Müsabiqədə qiymətləndirmə 10 meyar əsasında və hər meyar üzrə xüsusi bal verilməklə aparılıb. Həmin meyarlar sırasına il ərzində beynəlxalq indeksə malik Q1, Q2, Q3, Q4 kateqoriyalı jurnallarda dərc etdirdiyimiz məqalələr, sənaye üçün faydalı model, iştirak etdiyimiz yerli və beynəlxalq konfranslar, tədrislə bağlı fəaliyyət və digər istiqamətlər daxildir".*

***BDU-nun "İlin gənc alimi" müsabiqəsində təbiət, dəqiq və texnika elmləri üzrə ən yüksək nəticəni Nanomateriallarıın kimyəvi fizikası kafedrasının baş müəllimi, fizika üzrə fəlsəfə doktoru Lalə Qəhrəmanlı göstərib. O, həm də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisidir. Gənc alim AZƏRTAC-a müsahibəsində bu müsabiqə haqqında, eyni zamanda, elmi fəaliyyəti barədə fikirlərini bölüşüb. Müsahibəni təqdim edirik.***




***-Lalə xanım, Siz BDU-nun keçirdiyi müsabiqədə ən yüksək nəticə göstərərək "İlin gənc alimi" seçilmisiniz. Müsabiqəyə təqdim etdiyiniz iş barədə məlumat verərdiniz.***

-Əvvəlcə onu deyim ki, "İlin gənc alimi" müsabiqəsi 2020-ci ildən etibarən Bakı Dövlət Universitetində hər il keçirilir və 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunur. Bu müsabiqə iki istiqamət üzrə nominasiya elan edir. Birinci istiqamət təbiət, dəqiq və texnika elmləri, ikinci istiqamət humanitar və ictimai elmləri əhatə edir. Mən müsabiqədə dəqiq elmlər üzrə iştirak etdim. Müsabiqədə qiymətləndirmə 10 meyar əsasında və hər meyar üzrə xüsusi bal verilməklə aparılıb. Həmin meyarlar sırasına il ərzində beynəlxalq indeksə malik Q1, Q2, Q3, Q4 kateqoriyalı jurnallarda dərc etdirdiyimiz məqalələr, sənaye üçün faydalı model, iştirak etdiyimiz yerli və beynəlxalq konfranslar, tədrislə bağlı fəaliyyət və digər istiqamətlər daxildir. Mənim də Q1 kateqoriyalı jurnalda 5 məqaləm, Q2 kateqoriyalı jurnalda 5 məqaləm, Q3 kateqoriyalı jurnalda 3 məqaləm çap edilmişdi ki, bütün bu göstəriciləri müsabiqəyə təqdim etmişdim. Müsabiqənin 12 iştirakçısı arasından yekun olaraq qalib seçildim. Onu da qeyd edim ki, mən son üç il ərzində bu müsabiqədə "İlin gənc alimi" nominasiyası üzrə ardıcıl olaraq qalib seçilmişəm. Gənclərin motivasiya olunmaları, elmi fəaliyyətlərinin qiymətləndirilməsi istiqamətində atılan bu addıma görə universitet rəhbərliyinə dərin təşəkkürümü bildirirəm.

***-Nanotexnologiyaya maraq sizdə haradan yaranıb?***

-Bakı Dövlət Universitetinin Fizika fakültəsində bakalavriat təhsili aldığım zaman fənlər arasında nanotexnologiya diqqətimi çəkməyə başladı. Digər tərəfdən, universitetimizdə Nanoaraşdırmalar Elmi-Tədqiqat Mərkəzi var idi. Hələ tələbəlik dövründə bu Mərkəzin elmi-texniki bazası ilə tanış olmuşdum. Eyni zamanda, bu sahə üzrə bizə tədris edilən mövzular, oxuduğum dərs vəsaitləri, tanış olduğum tədqiqatlar zamanı nanohissəciklərin - kiçikölçülü bu hissəciklərin öz analoqlarından fərqlənmə xüsusiyyətləri, onların xassələrini istənilən cür variasiya edə biləcəyimiz və bununla da onların tətbiq perspektivlərini genişləndirə bilmək imkanı marağımı çəkdi və qərara aldım ki, öz təhsilimi bu sahə üzrə davam etdirim. Magistratura təhsilimi də BDU-da aldım. 2022-ci ildə isə nanoquruluşların fizikası və texnologiyası ixtisası üzrə fizika üzrə fəlsəfə doktoru dərəcəsini aldım. Daha sonra İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun Fraskati laboratoriyasında araşdırma apardım; yəni Azərbaycanda başladığım tədqiqatlarımı İtaliyada davam etdirdim. Bütün bunların nəticəsində möhkəm qurulmuş elmi əlaqələrimiz mövcuddur. Onlarla birgə konfransların təşkilini həyata keçiririk, həm onlar buraya dəvət olunmuş məruzəçi kimi gəlirlər, həm də biz orada təşkil olunmuş beynəlxalq konfranslarda dəvət olunmuş məruzəçi kimi çıxış edirik.

***-Baş müəllim kimi fəaliyyət göstərdiyiniz Nanomaterialların kimyəvi fizikası kafedrasında hansı tədqiqatlar aparılır?***

-Kafedramız Nanoardırmalar laboratoriyası ilə birgə elmi-tədqiqat işləri həyata keçirir. Bu tədqiqatlar sırasında həm sensor texnologiyası, həm supertutuma malik materiallar, eyni zamanda, onların fiziki-kimyəvi xassələrinin, morfologiyasının araşdırılması ilə yanaşı, tətbiq perspektivləri qiymətləndirilir. Hazırda laboratoriyada mənim rəhbəri olduğum qrup triboelektriknanogeneratorlar – mexaniki və ya biomexaniki enerjinin elektrik enerjisinə konsertasiyası istiqamətində işlər həyata keçirir. Bu istiqamətdə konkret layihələr reallaşdırırıq. Həmin layihələr KOBİA-nın elan etdiyi qrant müsabiqələrinin dəfələrlə qalibi olub, həmçinin beynəlxalq səviyyədə qəbul olunub. Eyni zamanda, supertutumlara aid, məsələn, karbon əsaslı materiallarla - qrafen, qrafen oksidlə işləyirik ki, bunlar supertutumların və sensor texnologiyasının istifadəsində geniş perspektivlərə malikdir. Biz konkret olaraq onlar üçün nəticələr əldə etmişik. Məsələn, qrafen əsaslı materialların biosensorlar kimi tətbiqi həm İtaliyadan, həm də Almaniyadan olan həmkarlarımızla birgə tədqiqatlarımızın nəticəsidir ki, onların səmərəliliyinin konkret qiymətləndirməsi işlərini birgə həyata keçiririk. Cari olaraq laboratoriya şəraitindən başlayan sintez mərhələsi öz tətbiq sahələrini tapır.

Yeri gəlmişkən, mən bu il aldığımız patentdən də danışmaq istərdim. Bu il hüquqları Bakı Dövlət Universitetinə məxsus olmaqla, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının rəhbəri Mustafa Muradovun və mənim müəllifliyim ilə birgə çirkab sularının təmizlənməsinə aid gümüş nanonaqillər əsasında fotodeqradasiya üsulu adlı sənaye üçün faydalı model yaratmışıq. Apardığımız bu tədqiqat konkret nəticələr göstərmişdir və buna görə biz patent almışıq. Məlumdur ki, sənayedə bir çox boyaq maddələrinin, üzvi maddələrin suya axıdılması nəticəsində su çirklənir, nəticədə su ehtiyatımız azalır. Bu zaman suyu effektiv şəkildə təmizləmək zərurəti yaranır. Bizim apardığımız araşdırma ilə 98 faiz təmizləmə dərəcəsi əldə edə bilmişik.

***-Elmi biliklərinizi, təcrübənizi gənc həmkarlarınızla necə bölüşürsünüz?***

- Bizdə hər həftə həm tələbələr, həm də əməkdaşlar üçün seminarlar təşkil edilir. Əməkdaşlar məşğul olduqları sahələr üzrə apardıqları tədqiqatlar barədə, eləcədə dünyada bu istiqamətdə olan yeniliklər haqqında məlumat verirlər. Həmin seminarlarda tələbələr də öz tədqiqat sahələri, yaxud onlara verilmiş tapşırıq əsasında apardıqları araşdırmalar, eləcə də universitet tərəfindən həyata keçirilən tədqiqatlar barədə çıxışlar edir, fikirlərini söyləyirlər. Beləliklə, tələbələr həm həvəsləndirilir, həm də istiqamətləndirilir. Onlara hansı sahələrdə necə yanaşma formasını izah edir, məsləhətlərimizi mütəmadi olaraq veririk.

***-Fikrimcə, gənc alimlərin xarici ölkələrdən olan həmkarları ilə əməkdaşlığı vacib istiqamətlərdəndir. Bu barədə sizin çalışdığınız kafedrada və ya fakültədə hansı işlər görülür, yaxud birgə tədqiqatlar aparılır?***

-Bizim laboratoriyanın geniş beynəlxalq əlaqələri mövcuddur. Əsasən Türkiyə ilə, həmçinin İtaliyanın, Almaniyanın elmi-tədqiqat müəssisələri ilə əlaqələrimiz var. Bu əlaqələr bizim dərc etdirdiyimiz məqalələrdən açıq-aydın görünür. Bir neçə universitet olaraq birgə tədqiqatlar həyata keçiririk. Layihələr çərçivəsində qısamüddətli ezamiyyətə gedirik, həmin ölkələrdə tədqiqat işlərimizi davam etdiririk, birgə araşdırmalar aparırıq. Bununla da dünyanın qabaqcıl universitetləri ilə həm bilik mübadiləsini, həm də texnologiya transferini həyata keçirmək mümkün olur.

***-Xarici ölkələrdən olan həmkarlarınız BDU-da aparılan tədqiqatları necə qiymətləndirir?***

-İstər Bakı Dövlət Universitetində olan təhsil və tədqiqat imkanları, istərsə də gənclərin həvəsi, apardığı tədqiqat işləri dünyanın digər universitetlərindən heç də geri qalmır. Məsələn, layihəyə başlayanda tədqiqatın təməl hissəsi universitetimizdə həyata keçirilir. Nəinki universitetimizdə elmi-tədqiqat aparan gənclər, ümumilikdə, Azərbaycan gəncləri daha çox çalışqandırlar. Onlar elmdə çox əmək sərf edən, səy göstərən, öz üzərində işləyən gənclərdir. Əgər bizim doktorantlarımız hər hansı beynəlxalq konfransda yüksəkixtisaslı mütəxəssislərin qarşısında şifahi şəkildə xarici dildə öz apardığı tədqiqatı səlis təqdimat edə bilirsə və həmin tədqiqatlar maraqla qarşılanırsa, bu, böyük bir göstəricidir.

***-Öz tədqiqat sahənız üzrə nələri hədəfləyirsiniz?***

-Mən artıq elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul olmuşam. Hazırda karbonun modifikasiyaları, quruluşu, müvafiq tətbiq sahələrinin öyrənilməsi üzrə araşdırmalar aparıram. Tədqiqat apardığım əsas sahə qrafendir. Bu, elektronikanın əsasını təşkil edir. Bu birləşmələrin çirkab sularının təmizlənməsində, yaşıl texnologiyalarda, bərpaolunan enerji istiqamətində geniş tətbiq edilməsi imkanları mövcuddur. Bunlar karbon qazı emissiyasının azaldılması baxımından ekologiyaya çox müsbət təsirə malikdir. Hazırda bu istiqamət üzrə araşdırmalarımı davam etdirirəm.

***-Gənclərə tövsiyəniz nədir?***

-Tövsiyəm odur ki, gənclər apardıqları tədqiqat zamanı daim çalışsınlar. Bir dəfə uğursuz olanda ruhdan düşməsinlər, öz üzərlərində işləsinlər. Mütləq davamlılıq nəticəsində mütləq uğur var, dayanmaq bütün ümidlərin bitdiyi yerdir. Onlar davamlı olaraq fəaliyyət göstərdikləri halda mütləq nəticə əldə edəcəklər. Onu da deyim ki, biz çox yaxşı bir elmi məktəbə düşmüşük. Bizim rəhbərimiz çox yaxşı olub. Həm magistratura, həm doktorantura rəhbərim eyni olub. O, heç vaxt bizi ruhdan düşməyə qoymayıb. Biz də ondan nümunə götürərək, gənc nəslə eyni motivasiyanı verməyə çalışırıq.

# BDU tələbələri "Fotojurnalistikaya Dəstək Proqramı" çərçivəsində müsabiqənin qalibi olublar

*Fevralın 14-də BDU, Mədəniyyət Nazirliyi, Mətbuat Şurası və "Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Fotojurnalistikaya Dəstək Proqramı" çərçivəsində "Fotojurnalistika sənətinin yaradıcı sənaye obyekti kimi kommersiyalaşdırılmasına dəstək" mövzusundakı fotomüsabiqənin qalibləri mükafatlandırılıb.*



Nəticələrə əsasən, Jurnalistika fakültəsinin II kurs (ingilis bölməsi) tələbəsi Nəzri Süleymanova və III kurs (ingilis bölməsi) tələbəsi Aytən Babaşova qalib gəliblər. Onlar Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid və "Yeni Çağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər tərəfindən təşəkkürnamə və mükafatla təltif ediliblər.

Tələbələrimizi təbrik edir və fəaliyyətlərində uğurlar arzulayırıq!

# BDU-nun 7 tələbəsi SOCAR-ın "Gənc İstedadlar Proqramı"ında iştirak edəcək

*Fevralın 21-də BDU-nun "Hüquq" ixtisası üzrə təhsil alan tələbələri Nurtac Xəlilova, Aysel Allahverdiyeva, "Kimya mühəndisliyi" ixtisasının tələbələri Fidan Mahmudova, Səidə Axundlu, Nübar Mustafayeva, Ülkər Mirzəzadə və "Geologiya və geofizika mühəndisliyi" ixtisasının tələbəsi Fidan Əliyeva SOCAR-ın təşkil etdiyi "Gənc İstedadlar Proqramı"nın seçim mərhələlərini uğurla tamamlayaraq, proqramda iştirak hüququ qazanıb.*

Təcrübə müddətində tələbələr SOCAR-ın strukturuna daxil olan müəssisələrdə istehsalat təcrübəsinə cəlb olunacaqlar.

Proqram 5 ay ərzində gənclərə SOCAR-da istehsalat təcrübəsində, ixtisas biliklərinin və səriştələrinin inkişafı üçün təşkil olunan təlimlərdə iştiak etmək, müəyyən edilmiş təqaüddən yararlanmaq imkanı verir. Proqramın sonunda öz bilik və bacarıqları ilə seçilən peşəkar və perspektivli gənclər işlə təmin olunma imkanı əldə edirlər.

SOCAR-ın "Gənc İstedadlar Proqramı" Azərbaycan Respublikasının və xarici ölkələrin müxtəlif ali məktəblərində təhsil alan Azərbaycan vətəndaşı olan, öyrənməyə həvəsli, şəxsi inkişafı, peşəkar vərdişləri və praktiki biliklərini artırmağa maraqlı olan, təşəbbüskar, komandada işləməyi bacaran, ixtisasını sevən və yüksək ixtisas biliklərinə sahib gənclərin inkişafına dəstək olmaq məqsədilə həyata keçirilir.

# BDU-nun üç tələbəsi "AzerGold"un tələbələr üçün elan etdiyi 4-cü təqaüd proqramının qalibi olub

*Fevralın 27-də BDU-nun 3 tələbəsi "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə ali və peşə təhsili müəssisələrinin tələbələri üçün elan edilən 4-cü təqaüd proqramının qalibi olub.*

Bunlar BDU-nun Geologiya fakültəsinin "Geologiya və geofizika mühəndisliyi" ixtisası üzrə IV kurs tələbələri Tural Murtuzov və Emin Zeynallı, Ekologiya və torpaqşünaslıq fakültəsinin "Ekologiya" ixtisası üzrə IV kurs tələbəsi Günel Hacəliyevadır. Hər üç tələbə dövlət sifarişi əsasında təhsil alır.

"AzerGold" təqaüd proqramı peşə təhsilinin inkişafına töhfə vermək, müvafiq istiqamət üzrə ixtisaslı mütəxəssislər yetişdirmək və onların əmək bazarına uyğunlaşmasına dəstək olmaq məqsədi daşıyır. Sözügedən təqaüd proqramı 2021-ci ildən təsis edilib. 2024/2025-ci tədris ili üzrə 10 universitet və 2 peşə təhsili müəssisəsinin tələbəsi bu təqaüdə layiq görülüb. Bu günədək ümumilikdə ali təhsil üzrə 38, peşə təhsili üzrə isə 37 tələbə proqram çərçivəsində qalib olub və QSC-də istehsalat təcrübəsinə cəlb edilib.

Tələbələrimizi təbrik edir, uğurlarının davamını arzulayırıq!

# Elm və Təhsil Nazirliyinin strukturlarında əmək fəaliyyətinə başlayan 10 "Maarifçi"dən 2-si BDU məzunudur

*Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə icra olunan ikinci "Maarifçi" tələbə-məzun təcrübə proqramını başa vuraraq, nazirlik və tabe qurumların strukturlarında əmək fəaliyyətinə başlayan 10 nəfərdən 2-si BDU-nun məzunudur.*

Belə ki, Coğrafiya fakültəsinin "Davamlı inkişafın idarə edilməsi" ixtisası üzrə məzunu Cavid Bağırov nazirliyin Strateji planlaşdırma və təhlil şöbəsində, həmin fakültənin SABAH qruplarının "Coğrafiya müəllimliyi" ixtisası üzrə məzunu Nəzrin Manafova isə Təhsil İnstitutunun Təhsilverənlərin peşəkar inkişafı mərkəzinin Əlavə təhsil xidmətlərinin keyfiyyətinə nəzarət şöbəsində işlə təmin olunub.

Elm və Təhsil Nazirliyində və qurumlarında təcrübə imkanları yaradan, 3 ay davam edən ikinci "Maarifçi" proqramını 35 nəfər müvəffəqiyyətlə bitirib. Onlardan 12-si BDU məzunudur. Proqramın təşkilində məqsəd elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək göstərməkdir.

# BDU-da fəaliyyət göstərən "Yeni Klub" Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirib

***BDU fəaliyyət göstərən "Yeni Klub" 21 fevral – beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirib.***

Filologiya fakültəsinin Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru İlhamə Hacıyeva çıxış edərək, dilin xalqın milli kimliyinin formalaşmasında rolu, Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı həyata keçirilən tədbirlərlə bağlı məlumat verib. Azərbaycan dilinin tarixindən, keçdiyi inkişaf yolundan, zənginliyindən bəhs edib, klassik şairlərin əsərlərindən nümunələr səsləndirib.

Klubun koordinatorları - Tarix fakültəsinin III kurs tələbəsi Gülarə Mehdizadə ana dili haqqında şeirlər səsləndirib, Sosial elmlər və psixologiya fakültəsinin I kurs magistrantı Ağazahir Ağazadə isə dil və mədəniyyətin qorunması haqqında təqdimat edib.

Tədbir günün əhəmiyyəti haqqında diskussiya ilə davam edib.

# BDU-da "21 fevral - Beynəlxalq Ana Dili Günü" adlı kitab sərgisi

*Fevralın 21-də BDU-nun Elmi Kitabxanasında 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi təşkil olunub.*



Sərgidə Azərbaycan dilinin özünəməxsusluğunu, təbii dil xüsusiyyətlərini, tarixi zənginliyini, müasir təzahür formalarını əks etdirən kitab, dərslik və dərs vəsaitləri, həmçinin dünyanın müxtəlif dilləri - türk, rus, ingilis, alman, fransız, yapon, Çin, ərəb, urdu, qədim roma dilləri, Qafqazda yaşayan tatların dilinə aid bir çox nəşrlər nümayiş olunur.

Sərgidə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili statusuna yüksəldilməsi, dilimizin xarici təsirlərə məruz qalmadan qorunub saxlanılmasında əvəzsiz rolundan bəhs edən nəşrlər xüsusi işıqlandırılır.

# BDU-da Beynəlxalq Ana Dili Günü qeyd olunub



*Fevralın 21-də BDU-da Tələbə Gənclər Təşkilatı və "BDU könüllüləri"nin nəzdində fəaliyyət göstərən "Şərq Ölkələri Klubu"nun təşkilatçılığı ilə 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirilib.*

Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli, Filologiya fakültəsinin müəllimi Qismət Cəfərov, "BDU könüllüləri" təşkilatının fakültə üzrə sədri Teymur Əsədov çıxışlarında müasir dünyanın dil mənzərəsindən, qloballaşmanın milli dillərə təirindən, Azərbaycan dilinin keçdiyi tarixi inkişaf yolundan, dilimizin xarici təsirlərə qarşı müqavimət dərəcəsinin güclü olmasından söz açıb, dövlət müstəqilliyinin bərpasından sonra Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən dil quruculuğundan bəhs ediblər.

Tədbirdə Azərbaycan dilinin inkişafı ilə bağlı ədəbi nümunələr diqqətə çatdırılmaqla yanaşı, ərəb, fars, türk, urdu, Çin və digər dillərdə çıxışlar edilib, bu dillərin tarixi, inkişafı və əhəmiyyəti vurğulanıb.

# "BDU könüllüləri" təşkilatının sədri Nərmin Heydərova "İlin gənci" seçilib

***Fevralın 2-də Gənclər və İdman Nazirliyinin, Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Sumqayıt - Gənclər Paytaxtı 2025"in açılış mərasimi keçirilib. Mərasimdə Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının sədri Nərmin Heydərova "İlin gənci" mükafatına layiq görülüb.***



Nərmin Heydərova həmçinin Bakı şəhər Gənclər və İdman İdarəsi tərəfindən də dövlət gənclər siyasətinin həyata keçirilməsində göstərdiyi fəallığa görə Fəxri Fərmanla təltif edilib.

Təşkilatın sədri Nərmin Heydərovanı təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

Qeyd edək ki, 5 ildir fəaliyyət göstərən "BDU könüllüləri" təşkilatı ətrafında birləşdirdiyi 1500 üzvü ilə Universitet, həm də ölkənin sosial-ictimai və mədəni həyatında xüsusi fəallığı ilə seçilir.

# BDU tələbələrinin kibertəhlükəsizlik sahəsində bacarıqlarının inkişaf etdirilməsi müzakirə olunub

***Fevralın 10-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə "Cybernetics Academy" şirkətinin icraçı direktoru Sevinc Rəcəbli və kibertəhlükəsizlik üzrə mentor Ömər Nudirəliyev arasında görüş keçirilib.***

Görüşdə tələbələrin kibertəhlükəsizlik sahəsində bacarıqlarının inkişaf etdirilməsi üçün real sənaye təcrübələrinə qoşulması məsələsi müzakirə edilib. Qeyd olunub ki, sənaye təcrübələrinin təşkili tələbələrin real iş mühitində biliklərini tətbiq etməsinə və praktik bacarıqlar əldə etməsinə imkan yaradır. Kibertəhlükəsizlik sahəsində yaradıcı yanaşmaların inkişafı, innovativ həllərin hazırlanması üçün müxtəlif rəqəmsal layihələrin keçirilməsinin, bu istiqamətdə əməkdaşlığın zəruriliyi xüsusi vurğulanıb.

# BDU tələbələri üçün növbəti "ARB 24 NewsLab" təlim proqramına müraciət qəbulu başlayıb

***BDU və "ARB 24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində növbəti "ARB 24 NewsLab" təlim proqramına müraciətlərin qəbulu başlayıb.***

Təlim proqramına Jurnalistika fakültəsinin 4-cü kurs tələbələri və magistrləri qoşula bilərlər.

Təlim proqramı 3 ay davam edir. Müsahibə mərhələsindən uğurla keçən tələbələr daha sonra praktik məşğələlərə cəlb olunurlar. BDU və "ARB 24"ün birgə təşkilatçılığı ilə hazırlanan layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, video-montaj sahələrini əhatə edir. Layihəni uğurla bitirən tələbələrə sertifikatlar təqdim olunur və iştirakçıların ən azı yarısı əmək müqaviləsi ilə rəsmi şəkildə işə götürülürlər.

# BDU-nun 6 tələbəsi "Qırmızı Ürəklər Təhsil Təqaüdü"nə layiq görülüb

*Tələbələrə təqdim ediləcək təqaüd "Birbank"la Fondun 2023-cü ildə start verdiyi "Onu oxut" ianə kampaniyası çərçivəsində toplanan vəsait hesabına təmin edilir.*

***Bakı Dövlət Universitetinin 6 tələbəsi - Xanım Cəfərova, Gülər İsmayılzadə, Fəridə Məmmədova, İbrahim Mustafayev, Fatimə Şabanova, Səlimə Zəkizadə Təhsilin İnkişafı Fondu və Qırmızı Ürəklər Fondunun birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Qırmızı Ürəklər Təhsil Təqaüdü" proqramının qalibi olub.***

Proqrama ümumilikdə 306 nəfər müraciət edib. Seçim prosesini keçən 69 namizəd müsahibə mərhələsinə dəvət edilib. Sonda bütün mərhələlərdən uğurla keçən 23 tələbə proqramın qalibi olub. Qalib tələbələr 2024-2025-ci tədris ili boyunca hər ay 200 AZN məbləğində təqaüd alacaqlar.

Qaliblərin seçimi zamanı ali təhsil müəssisələrində I kursda əyani bakalavriat təhsili alan, qəbul imtahanında 600-dən yuxarı bal toplayan, dərsdənkənar fəaliyyətləri və akademik göstəriciləri yüksək olan, sosial baxımdan həssas əhali qrupuna aid olan tələbələrə üstünlük verilib.

Qeyd edək ki, layihə çərçivəsində 2022-2023 tədris ilində 26, 2023-2024-cü tədris ilində isə 25 tələbə bu imkandan yararlanma şansı əldə edib. Cari ildə təqaüd proqramı Təhsilin İnkişafı Fondu və Qırmızı Ürəklər Fondu arasındakı əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilir. Tələbələrə təqdim ediləcək təqaüd "Birbank"la Fondun 2023-cü ildə start verdiyi "Onu oxut" ianə kampaniyası çərçivəsində toplanan vəsait hesabına təmin edilir. Gələcəyin istedadlı gənclərini dəstəkləmək üçün həyata keçirilən bu təşəbbüs təhsildə bərabər imkanların təmin edilməsinə töhfə verməyi hədəfləyir.

Qırmızı Ürəklər Fondu - "Red Hearts" 2019-cu ildə "Kapital Bank"ın könüllü əməkdaşlarının təşəbbüsü ilə yaradılıb. 2020-ci ildə dövlət qeydiyyatına alınan Fond ölkəmizdə ianəçilik mədəniyyətinin formalaşmasına xidmət edir.

# BDU THİK aktiv tələbələri mükafatlandırıb

***Fevralın 4-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tərəfindən BDU-nun ictimai həyatında aktiv fəaliyyət göstərən və fərqlənən tələbə-gənclərə təşəkkürnamələr təqdim olunub.***



BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov THİK-in uğurlu fəaliyyətlərindən söz açıb. O, tələbələrin təşəbbüskarlığını və ictimai fəallığını yüksək qiymətləndirib, onların BDU-nun həyatında mühüm rolu olduğunu bildirib.

BDU THİK-in sədri Zöhrab Cavadzadə Komitənin gənclərə verdiyi töhfələrdən bəhs edib. THİK-in son illər aktiv fəaliyyət göstərdiyini və ətrafında daha çox fəal tələbəni birləşdirdiyini vurğulayıb. O qeyd edib ki, THİK-in əsas məqsədi tələbələrin ictimai-sosial həyatlarına təkan vermək, fəaliyyətlərini stimullaşdırmaqdır.

Sonda BDU THİK-in fakültə, departament və klub sədrlərinə və İdarə Heyətinin fəal üzvlərinə təşəkkürnamələr təqdim edilib.

# BDU-da qış imtahan sessiyası başa çatıb

***BDU-da qış imtahan sessiyası başa çatıb.***

Bakalavriat səviyyəsində 949 qrup 20500-dən çox, magistratura səviyyəsində isə 267 ixtisaslaşma üzrə 2160 tələbə imtahan verib. Sessiya zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün fevralın 7-dək şərait yaradılıb.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası fəaliyyət göstərib. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edib.

# BDU-nun SABAH qruplarının tələbəsi "İdeyanı Reallaşdır" fərdi qrant müsabiqəsinin qalibi olub

***Fevralın 7-də BDU-nun SABAH qruplarının magistratura səviyyəsinin "Kompüter elmləri və texnologiyaları" ixtisasının I kurs tələbəsi Hacıağa Musayev Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi, "ASAN Könüllüləri" təşkilatının təşkilatçılığı və "TechAcademy"nin tərəfdaşlığı ilə "CodeSphere" layihəsinin həyata keçirtdiyi "İdeyanı Reallaşdır" fərdi qrant müsabiqəsinin qalibi olub.***



Layihənin əsas məqsədi gənclər arasında front-end proqramlaşdırma üzrə məlumatlılıq səviyyəsini yüksəltmək və bu sahənin düzgün şəkildə təbliğini təmin etməkdir.

# BDU tələbəsi stolüstü tennis turnirinin qalibi olub

BDU-nun Tələbə Gənclər Təşkilatının üzvü, Kimya fakültəsinin III kurs tələbəsi Xədicə Hüseyn Gənclər və İdman Nazirliyi yanında İctimai Şura tərəfindən keçirilən stolüstü tennis turnirində II yerin qalibi olub. Tələbəmizi təbrik edir, uğurlar arzulayırıq!



# BDU tələbələri Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

***Fevralın 3-də Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun rəhbərliyi və kollektivləri, eləcə də gənclər təşkilatlarının nümayəndələri Azərbaycan Gəncləri Günü münasibətilə Fəxri Xiyabanı ziyarət edib.***

Ziyarətdə Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının və Tələbə Gənclər Təşkilatının üzvləri də iştirak ediblər.

Onlar Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyub, əziz xatirəsini ehtiramla yad ediblər.




# “BDU könüllüləri”nin komandası intellektual oyunun qalibi olub

***Fevralın 3-də Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının komandası Heydər Əliyev Mərkəzində “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı, “Azərlotereya” ASC-nin dəstəyi ilə 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə gənclər arasında keçirilən “Gənc Vətənpərvərlər: Konstitusiya və Suverenlik - Nə? Harada? Nə zaman?” intellektual oyununun qalibi olub.***




Tədbirdə çıxış edən “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, “Regional İnkişaf” İctimai Birliyinin nümayəndəsi İlkin Muradov və “Azərlotereya” ASC-nin İctimaiyyətlə əlaqələr və korporativ sosial məsuliyyət üzrə departament rəhbəri Seymur Teymurov gənclərin hərtərəfli inkişafının dövlətin gənclər siyasətinin başlıca məqsəd və amalı olduğunu, “Konstitusiya və Suverenlik” ili ilə əlaqədar gənclər arasında keçirilən intellektual oyunun onların ölkəmizin çoxəsrlik tarixi, mədəniyyəti, tarixi hadisələri, dövlət müstəqiliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğunda keçdiyi tarixi yolu barədə biliklərinin artmasında əhəmiyyətli rol oynayacağını diqqətə çatdırıblar.

Rəsmi hissədən sonra “Xəzər” İntellektual Gənclər Klubunun peşəkar komandasının təşkilatçılığı ilə “Nə? Harada? Nə zaman?” oyununa start verilib. Üç turdan ibarət yarışda hər birində 6 nəfər olmaqla ümumilikdə 25 komanda iştirak edib. Münsiflər heyətinin qərarına əsasən, “BDU könüllüləri”nin “Zəngəzur” komandası I yerə layiq görülüb.

Sonda qalib komandalar müxtəlif mükafat və sertifikatlarla təltif olunublar.

# BDU tələbələri üçün təlim: “Uğurlu ünsiyyət”

***BDU-nun Psixoloji yardım sektoru “Uğurlu ünsiyyət” adlı təlim keçirib. Təlim universitet tələbələrinin şəxsi inkişafı və ünsiyyət bacarıqlarını artırmağa yönəlib. Təlimin məqsədi tələbələrin effektiv ünsiyyət qurma bacarıqlarını artırmaq, bədən dilinin və ünsiyyətin insan münasibətlərindəki əhəmiyyətini vurğulamaqdır.***

Psixoloji yardım sektorunun psixoloqu Vasif Bəşirov ünsiyyətin insanın sosiallaşmasındakı rolu və funksiyalarından bəhs edib, onun yalnız məlumat mübadiləsi deyil, həm də emosional bağların qurulması, qarşılıqlı anlayışın formalaşması və daha sağlam sosial əlaqələrin yaradılması baxımından önəmli olduğunu vurğulayıb. Tələbələrə sağlam ünsiyyətin strukturu haqqında məlumat verərək, ünsiyyətin müxtəlif mərhələlərində diqqət etməli olduqları məqamları izah edib.

Daha sonra psixoloq ünsiyyət bacarıqlarının əhəmiyyətini və bu bacarıqların gündəlik həyatdakı rolunu şərh edib. Ünsiyyətin səmərəliliyini artırmaq üçün aktiv dinləmək, düzgün suallar verməli, empatiya və bədən dili kimi amilləri necə istifadə etmək barədə iştirakçılara təlimatlar verib.

Təlimin sonunda iştirakçılara praktik tapşırıqlar verilib, diskussiya aparılıb.

# BDU-nun 7 tələbəsinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdü verilib

***Fevralın 18-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı olan Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi (ATİAHİRK) tərəfindən təhsildə və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 100 tələbəyə adlı təqaüd təqdim edilib.***

Onların arasında Bakı Dövlət Universitetinin 7 tələbəsi – Nuran Yaqubova, Şükürən Aslanov, Nuray Nağıyeva, Orxan Əsgərli, Nəzrin Ağayeva, Aydan Cəfərzadə, Röya Əşrəfova da var.

Təqdimat mərasimində AHİK-in və ATİAHİRK-ın rəhbərləri, ölkənin bir sıra nüfuzlu ali təhsil müəssisələrinin rektorları, Tələbə Həmkarlar İttifaqı komitələrinin sədrləri iştirak ediblər.

Əvvəlcə Vətənimizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışıb, gənclərin vətənpərvərlik ruhunda böyüməsi, potensialının reallaşdırılması, yüksək ixtisaslı kadr kimi formalaşması istiqamətində görülən işləri qeyd edib. Heydər Əliyev Fondunun Azərbaycan gəncliyinin inkişafında xidmətlərini vurğulayan Konfederasiya sədri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elm, təhsil, mədəniyyət, səhiyyə, idman sahələrində uğurlu layihələrin həyata keçirildiyini də diqqətə çatdırıb.

Qeyd edilib ki, Konfederasiya dövlətin gənclər siyasətinə fəal dəstək verir, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək hüquqlarının qorunması və potensialının inkişaf etdirilməsi üçün müxtəlif tədbirlər və layihələr həyata keçirir. Belə layihələrdən olan “Adlı təqaüd” layihəsi tələbə gənclərin elm və təhsilə marağının artmasına, potensialının inkişafına əhəmiyyətli töhfə verir.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektor vəzifəsini müvəqqəti icra edən Yusif Ağayev ölkəmizdə insan kapitalının inkişaf etdirilməsinin prioritet məsələlərdən biri olduğunu qeyd edib, elmi tərəqqinin, yüksək texnologiyanın inkişaf etdiyi hazırkı dövrün çağırışlarının qarşıya yeni hədəflər qoyduğunu, bu cür layihələrin gənclərə stimul verdiyini diqqətə çatdırıb.

Azərbaycanın regionda iqtisadi və siyasi cəhətdən güclü ölkəyə çevrildiyini vurğulayan BDU rektoru Elçin Babayev rəhbərlik etdiyi ali təhsil ocağının fəaliyyətindən danışıb, tələbə gənclərin potensialının üzə çıxarılmasında “Adlı təqaüd” kimi layihələrin əhəmiyyətini qeyd edib, AHİK-lə əlaqələrin genişləndirilməsi istiqamətində təkliflərini səsləndirib.

Qeyd edək ki, ATİAHİRK-nın “Adlı təqaüd” layihəsi 1995-ci ildən həyata keçirilir, ölkənin müxtəlif ali məktəblərində əla və yaxşı qiymətlərlə təhsil alan, eyni zamanda tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən tələbələrin təhsildəki inkişafına dəstək məqsədi daşıyır. İndiyədək 3079 nəfər tələbə bu adlı təqaüdə layiq görülüb.

Təqaüd alan tələbələr çıxışlarında göstərilən etimadın onları daha yaxşı oxumağa həvəsləndirdiyini, elmə, təhsilə maraqlarını daha da artırdığını vurğulayıblar. Tədbirin sonunda “Adlı təqaüd”ə layiq görülən tələbələrə hədiyyələr təqdim olunub.



**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:**
28.02.2025
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08